www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 1 avqust 2018-ci il Çərşənbə № 163 (7052) Qiymətı 60 qəpik

**Xəbər**

## Paytaxtda daha bir süpürgəçini maşın vurub öldürdü

yazısı səh.14-də

# CAHANGİR HACIYEVİ LONDONDAN DA VURMAĞA BAŞLADILAR - MÜLKLƏRİNƏ HƏBS QOYULUR

Sabiq bankirin arvadı İngiltərə Milli Cinayət Agentliyinin diqqətini cəlb edib; Zamirə Hacıyevanın Böyük Britaniyadakı mal varlığı təhlükədə; ölkədən böyük miqdarda vəsait çıxaran oliqarxların və onların ailələrinin aqibəti yaxşı görünmür




yazısı səh.5-də

**Gündəm**

### Qiymət artdı, qiymətləndirmə davam edir - TŞ-nin qərarına fərqli baxışlar



**Qubad İbadoğlu:** "Bu qərar növbəti qiymət artımları üçün əsas yaradacaq"; **Pərviz Heydərov:** "Hər bir addımın əsası var"

yazısı səh.4-də

### Qarabağı niyə azad edə bilmirik - mürəkkəb məsələ barədə bəsit sual

yazısı səh.9-da

### İntihar üçün "ölüm körpüsü"nün seçilməsinin əsas səbəbi

yazısı səh.6-da

### Bazarlarda zəhərli uşaq geyimləri satılır - SOS!

yazısı səh.13-də

### İş adamı ilə Aslan İsmayılovun məhkəməsi başa çatdı - il yarım cəza

yazısı səh.13-də

*Türkiyəli tanınmış politoloq:*

### "Vaşinqton Ankaradan istədiyini ala bilməyəcək"

yazısı səh.12-də

### Azərbaycanda da marixuana leqallaşa bilərmi? - iki rəy

yazısı səh.15-də

### Mariya Zaxarova Bakıdan gedən kimi ərazi bütövlüyümüzü şübhə altına aldı

yazısı səh.3-də

*Fazil Mustafa:*

### "Heç bir faydası olmayan, işləməyən bir qanun qəbul etmişik"

yazısı səh.14-də

### Rusiyada keçirilən tank yarışlarında məqsəd: "Burada idmandan çox siyasət var..."

yazısı səh.9-da

## İrəvan ABŞ-ın əli ilə Kremlə kompromat savaşı açır - Paşinyan tarana gedir?

Köçəryanı Amerikanın həbs etdirdiyi barədə sensasion iddia ortaya çıxıb; eks-prezident zindanda öldürülə bilər...

yazısı səh.8-də



### Elmira Axundovanın adı qarışan böyük dələduzluq işinin ilginc detalları

yazısı səh.10-da



*Fədayə Laçın:*

### "Etibarın qaçması üçün lazım olan açarı bacımdan aldım"

yazısı səh.3-də



*Ayaz Mütəllibov:*

### "Bu, təhlükəli, kimlərinsə işinə yarayacaq çağırışlardır"

yazısı səh.7-də



## Xalq artisti əsəbiləşdi: “Yekə kişisən, ayıb olsun sənə...”

**Xalq artisti, tanınmış aktyor Tariyel Qasımov əsəbiləşib. Yenicag.az-a açıqlama verən aktyor Azərbaycanda filmə çəkilmədiyini deyərək, giley-güzarını bölüşüb: “Film yoxdur ki, biz də çəkilək. Seriallara dəvət edirlər, çəkilmirəm. Çünki səviyyəmə uyğun filmlər deyil. Kimsə atasının pulu hesabına rejissor, operator olub, film çəkir. Bir-iki peşəkar dəvət edirlər ki, onların kölgəsində tanınsınlar. Qalanı da küçədən keçən. Qohum-əqrəbasını yığıb filmə çəkir. Baxıb əsəbiləşirəm, buna görə mən də təkliflərə etiraz edirəm. Sabah, birigün tamaşaçı o filmə baxıb məni söyər. Deyər, yekə kişisən, ayıb olsun, o cür möhtəşəm filmlərdən sonra belə səviyyəsiz seriallara çəkilirsən”.**

Aktyor bildirib ki, nəhayət, uzun fasilədən sonra Özbəkistanda yeni filmə çəkiləcək: “Dəfələrlə xarici filmlərə çəkilmişəm. Bu yaxınlarda ”Özbəkfilm"in rejissoru Azərbaycanda kastinqlər keçirdi, məni də bəyəndilər. Bir-iki aya Özbəkistanda yeni filmə çəkiləcəyəm".

## Borca görə axtarışda olan 16 nəfər saxlanıldı

**İyulun 30-dan 31-dək daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 106 cinayət faktı qeydə alınıb, onların da 21-i “isti izlər”lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 8 cinayətin açılması təmin olunub.**

Axtarışda olduğuna görə ümumilikdə 35 nəfər, borclu şəxs qismində axtarışda olan 16 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında 3 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 3 nəfər ölüb, 1 nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 13 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 23 nəfər saxlanılıb.

## Küçədə qadının başına daş vurub, qızıl sırğalarını aldılar



**Bakıda qadına daş parçası ilə xəsarət yetirərək qızıl sırğasını quldurluq yolu ilə alan şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, bu barədə zərərçəkən Nizami Rayon Polis İdarəsinin 25-ci Polis Şöbəsinə məlumat verib.**

Belə ki, qadın izahatında rayonun Nəsimi və Şərifli küçələrinin kəsişməsində naməlum şəxsin ona hücum etdiyini, əlində olan küt alətlə başına zərbələr endirdiyini və qulağında olan qızıl sırğanın bir tayını götürərək hadisə yerindən qaçdığını bildirib. Məlumat daxil olan kimi zərərçəkənin izahatı alınıb və dərhal cinayəti törətməkdə şübhəli bilinən şəxsin axtarışlarına başlanılıb. Şöbə əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat axtarış tədbiri nəticəsində həmin cinayəti törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Adıgözəlov Azər Ağa oğlu saxlanılaraq istintaqa təqdim olunub.

Araşdırma zamanı onun qadına selofan paketin içində gizlətdiyi daş parçası ilə xəsarət yetirdiyi məlum olub. Saxlanılan şəxs ifadəsində törətdiyi cinayəti etiraf edib. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar aparılır. Polis əməkdaşları quldurluq etməkdə şübhəli bilinən bu şəxsin başqa cinayətlərdə iştirak etdiyini də istisna etmirlər. Onun əməllərindən zərərçəkən başqa şəxslər varsa, bu barədə Daxili işlər Nazirliyinin “102" Zəng Mərkəzinə və ya 25-ci Polis Şöbəsinə müraciət edə bilərlər.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Azərbaycanda iki şirkət rəhbəri həbs olundu



**Bank təşkilatlarından aldıqları kreditləri təyinatı üzrə istifadə etməyən şirkət rəhbərlərinin qanunsuz əməlləri barədə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasından daxil olmuş materiallar üzrə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, aparılmış istintaqla “Göyçay-Konyak zavodu” ASC-nin İdarə Heyətinin sədri Vaqif Məmmədovun aldığı kreditlərə görə ödənilməmiş borcları olduğu halda, həmin borcları ödəmək qabiliyyətində olmamasına baxmayaraq, 2013-cü ildən direktoru olduğu “Nicat” firmasının götürdüyü kreditlərin ödənilməsi üçün kifayət qədər əsas və dövriyyə vəsaitlərinə malik olması barədə “Texnika bank” ASC-yə təqdim etdiyi kredit sifarişinə bilə-bilə yalan məlumatlar daxil edib bankdan dövriyyə vəsaitinin genişləndirilməsi məqsədilə 150 min manat məbləğində kredit alaraq, həmin vəsaitin təyinatı üzrə istifadə edilməsini və ödənilməsini təmin etməyərək şəxsi ehtiyaclarına sərf etməsinə əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa, kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən “KR” MMC-nin təsisçisi və direktoru Rəhman Gülməmmədovun cəmiyyətin istehsal gücünün artırılmasına dair investisiya layihəsinin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına müvəkkil bank olan “Kredobank” ASC-dən ayrı-ayrı vaxtlarda aldığı 850 min manat məbləğində güzəştli şərtlərlə verilmiş məqsədli dövlət kreditinin 347 min 872 manatını təyinatından yayındıraraq şəxsi ehtiyaclarına sərf etməsinə əsaslı şübhələr müəyyən olunub.

Cinayət işləri üzrə V.Məmmədov və R.Gülməmmədovun dövlətə və müvəkkil bankların qanunla qorunan mənafelərinə külli miqdarda ziyan vurmalarına şübhələr üçün əsaslar yarandığından hər iki şəxs barəsində Cinayət Məcəlləsinin 195.2-ci (qanunsuz kredit alma və ya kreditdən təyinatı üzrə istifadə etməmə külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə ittiham elan olunmaqla barələrində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.

# Adnan Oktara aid 121 saytın fəaliyyəti dayandırılıb

**Adnan Oktar qrupuna aid olan “harunyahya.org” və “a9.com.tr” saytlarının da daxil olduğu 121 internet saytının fəaliyyəti dayandırılıb.**

Musavat.com Türkiyə mediasına istinadən xəbər verir ki, A.Oktar qrupu ilə bağlı aparılan istintaqa rəhbərlik edən İstanbul Baş Prokurorluğu Terror və mütəşəkkil cinayətkarlıq bürosu iyulun 23-də İstanbul 10-cu mülki-cəza məhkəməsinə müraciət edərək, sözügedən qrupa aid olan 121 internet saytının qapadılmasını tələb edib. Bu saytlar cinayətkar dəstəyə bağlı fəaliyyət göstərdiyi üçün 5651 saylı qanunun 8-ci maddəsi çərçivəsində yayımına əngəl qoyuldu.

Tələbi dəyərləndirən məhkəmə bildirib ki, şübhəli Adnan Oktarın rəhbərliyində, təşkilat içərisində gerçəkləşdirilən, adını dini camiəyə qoyduqları bir qurum ondan gözlənilməyəcək xarakterdə cinsi məzmunlu davranışlar sərgiləyib. Bundan başqa, təşkilat üzvləri arasında məsum və normal qarşılanması üçün Oktarın guya ki, mehdilik vəzifəsini həyata keçirməsi ilə bağlı yalan təbliğat aparılıb.



**Məhkəmənin açıqlaması aşağıdakı kimi davam edir:** “Guya mehdilik vəzifəsi apardığını insanlara inandırmağa çalışan Adnan Oktar sahib olduğu güc sayəsində hər etdiyi hərəkətin insanlar tərəfindən dərhal başa düşülməməsinə bu cür don geyindirməyə çalışırdı. O, etdiklərinin müqəddəs bir mənası olduğunu, ”mehdilik" vəzifəsini rahat və gizlilik içərisində apara bilməsi üçün onlara mane ola biləcək insanlara qarşı hücum etmək üçün yanıldıcı təbliğat aparırdı. Onlar “A-9" adlı qruplaşmaya aid kanaldakı islamiyyətlə heç bir əlaqəsi olmayan gülünc proqram və görüntülərlə cəmiyyətdə müzakirə olunurdu. İnsanlar arasında ”Adnan hocanın kedicikləri" ifadəsi də yenə sözügedən təşkilatın cinayət xarakterli fəaliyyətlərini gizləmək məqsədi ilə istifadə edilirdi. Bütün bu detallar araşdırılandan sonra cinayətkar qrupa aid saytlar tələb əsasında qapadılıb".

Məhkəmə aralarında www.harunyahya.com və a9.com.tr saytlarının da olduğu 121 internet saytının məzmununu araşdırıb. Son nəticədə bu saytların qapadılmasına qərar verib. Qərar Bilgi Texnologiyaları və Məlumat Qurumuna göndərilib.

❑ **SEVİNC,**
**musavat.com**

## Bu gün Bakıda yağış yağacaq

**Bakıda və Abşeron yarımadasında avqustun 1-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, havanın temperaturunun Abşeron yarımadasında gecə 23-26, gündüz 30-35, Bakıda gecə 24-26, gündüz 33-35 dərəcə isti olacağı gözlənilir. Abşeron çimərliklərində avqustun 1-də şimal çimərliklərində dəniz suyunun temperaturu 26-27, cənub çimərliklərində isə 27-28 dərəcə isti təşkil edəcək. Şimal-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq ki, bu da çimərliklərdə əlverişli şərait yaradacaq.

Azərbaycanın rayonlarında avqustun 1-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi, lakin səhər və axşam Böyük və Kiçik Qafqazın bəzi yerlərində şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 21-26, gündüz 33-38, dağlarda gecə 14-19, gündüz 22-27 dərəcə isti olacağı gözlənilir. Tibbi-meteoroloji proqnoza əsasən, avqustun 1-də Abşeron yarımadasında bəzi saatlarda rütubətliyin bir qədər çox olması meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

## Sumqayıtda xadimə işlədiyi evdən pul və qızıl oğurladı

**Sumqayıtda xadimə işlədiyi evdən pul və qızıl əşyaları oğurlayıb. DİN-dən verilən məlumata görə, iyulun 30-da Sumqayıt şəhər sakini Rəsul Fazil oğlu 4-cü Polis Bölməsinə ərizə ilə müraciət edərək 2017-ci ilin yanvar ayından aprel ayınadək olan müddətdə 30-cu məhəllədəki evindən 7500 manatının və 2000 manat dəyərində qızıl əşyalarının oğurlanmasını bildirib.**

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğun onun evində xadimə işləyən T.Novruzova tərəfindən törədilməsi müəyyən edilib. T.Novruzova izahatında hadisəni törətməsini və qızıl əşyaları həmyerlisi S.Ələkbərova ilə birgə satmasını etiraf edib.



## Prezident Əli Həsənova fəxri ad verdi

**Azərbaycan prezidenti İlham Əliyev dövlət qulluqçularına fəxri adların verilməsi haqqında sərəncam imzalayıb.**

Musavat.com AzərTAc-a istinadən xəbər verir ki, dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Həsənov Əli Məhəmmədəli oğluna "Əməkdar dövlət qulluqçusu" fəxri adı verilib.

# Mariya Zaxarova Bakını tərk edən kimi ərazi bütövlüyümüzü şübhə altına aldı

İşğalçılar Azərbaycana zərbə endirəcəkləri ilə təhdid etdilər, Müdafiə Nazirliyinin sərt reaksiyası özünü çox gözlətmədi; **İlham İsmayıl:** "Adama deyərlər ki, Sərsəng əlindədir də, elə, görüm, nə edirsən?.."

**Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistan KİV-lərinə müsahibəsində Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alıb. Qeyd edək ki, bu günlərdə M.Zaxarova Azərbaycanda səfərdə olub və "Jara" musiqi festivalında iştirak edib.**

Lakin Bakını tərk edən kimi M.Zaxarova Rusiyanın "Sputnik" agentliyinin erməni versiyasına müsahibə verib və həmin müsahibədə Rusiyanın tanınmış ictimai-siyasi xadimlərinin bu yaxınlarda 2016-cı ilin aprel ayında işğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə səs-küylü səfərini şərh edib (virtualaz.org).



Xatırladaq ki, Azərbaycana səfərləri çərçivəsində Rusiya elitasının tanınmış simaları - Aleksandr Dugin, deputat V.Savelyev, jurnalist M.Şevçenko, hərbi ekspert Korotçenko və bir çox başqaları birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini nümayiş etdiriblər.

**Lakin Mariya Zaxarovanın fikrincə, bu görkəmli rusiyalıların mövqeyi Rusiya XİN-in mövqeyi ilə üst-üstə düşmür.** "Demokratik cəmiyyətə malik hər bir ölkədə xeyli sayda ekspert və siyasətçilər var ki, öz şəxsi mövqelərini bildirirlər. Bu, dövlətin mövqeyi olmasa da, onların buna haqqı var", - Azərbaycanın ərazi bütövlüyünün bərpasını və Aran Qarabağın işğaldan tezliklə azad edilməsini tələb etmiş məşhur rusiyalıların sözlərini şərh edərkən M.Zaxarova deyib.

# Nəyi düz eləmirik

Əli ƏKBƏR



**Video-bloqumdan ermənilərə ard-arda iki müraciət ünvanladım və onların Azərbaycan haqqında danışan bloggerlərini tənqid etdim. "Mauser club"un facebook səhifəsində videolara 60 mindən çox baxış oldu. Şərh yazanların əksəriyyəti müsbət rəy bildirdilər. Ermənilər və azərbaycanlılar - 50-50 nisbətində videoları bəyəndilər. Bu, münaqişə tarixində presedenti olmayan hadisədir. Mən nə dedim ki, hər iki tərəf belə müsbət reaksiya verdi?**

Bunun sirri üslub və dildədir. Rahatlıq, arxayınlıq, özündən əminlikdədir. Mən də qarşı tərəfdə rahat, arxayın, özündən əmin, həyasızlıq eləməyən, böyük düşünə bilən bir opponent görmək istəyirəm. Yoxdur. Zatən belə adam olsa mənə və təmsil etdiyim dəyərlərə opponentlik etməz. Belələri də var ermənilər arasında. Hər şeyi başa düşüblər, amma çox marginaldırlar, danışmağa çəkinirlər. Ermənilərin sümükləşmiş ştamplarını inkar etmək, hətta onları sorğulamaq belə, ürək istəyir.

Biz fərqli fikirlərə dözümlülük baxımından ermənilərdən çox irəlideyik. Biz onlardan daha innovativ və cəsarətliyik. Bizdə qeyri-populyar fikirlərin ifadə edilməsi, stereotiplərin dağıdılması üçün daha azad mühit var. Söhbət azərbaycanlıların beyninin içindən gedir. Nə qədər dəhşətli və narahatedici olursa-olsun, azərbaycanlı fərqli bir fikri eşitməyə ermənidən daha çox hazırdır. Səbəbi odur ki, qeyri-populyar fikirlər tarix boyunca, xalq kimi formalaşma prosesimizin tərkib hissəsi olub, bütün dövrlərdə proseslə qoşa addımlayıb, sementləşdirici rol oynayıb.

İndi qalıb ermənilərin qazdığı quyuya düşən azərbaycanlıları o quyudan çıxarmaq. Tarix və qədimlik quyusundan. Azərbaycanlılar ermənilərin dilində danışmağa, tutuquşuluq etməyə məhkum olublar. Erməni "qədimlik"dən danışan kimi, "al mən səndən də qədiməm" demək, qarşı tərəfin oyun qaydalarını qəbul etməkdir. Qədimlik nədir? "Torpaq üzərində tarixi haqq" nədir? Bunlar cəfəngiyyatdır. Əsrlər boyunca o torpaqlarda yaşamış adamlar evlərindən qovulub, etnik təmizliyə məruz qalıblar. Məsələ budur və bundan başqa məsələ yoxdur. Tarix - tarix olmaqdan çıxarılıb, üstünə bər-bəzək vurulub, yuxarı başa keçiriləndə, olur zindan. Ermənilər tarix zindanındadır, bizi də orada görmək istəyirlər.

Xristianlıq doqmatikadan uzaqlaşıb, onu rədd edib, islamı bu meydanda oynamağa dəvət edən kimi, islamın qürub çağı başladı. Doqmatikaların toqquşmasında, o cümlədən ellinistik fəlsəfi baqaja malik olan, modern din islam, xristianlığa qalib gəlirdi. Təkcə Qəzalinin avtoritetini xatırlamaq kifayətdir. Xristianların dili dəyişən kimi, islam da aciz qaldı. Reformizm qarşısında dayana bilmədi və tənəzzül başladı.

Ona görə də dil və üslub dəyişməlidir. Bir az da onlar sizin oyun qaydalarınızla, sizin ərazinizdə oynasınlar. Bakıya toplaşan yüz mütrübdən biri erməniymiş. Gözümüz aydın. O biri mütrüblərdən fərqi nədir ki? Bir mütrüb yığıncağı niyə bu qədər mərkəzə oturdulur və fırtına qoparılır? Başqa iş-güc, mövzu qalmayıb?

Erməni tez-tez gəlib-getsə qorxursunuz nifrətiniz azalar, erməni sizin üçün adiləşər? Belə bir təhlükə varsa, deməli, nifrətiniz saxtadır. Öz doğrusundan əmin olan, başqasının doğrusunu eşitməkdən qorxmaz. Haqlı olan zildə danışmaz.

# "Etibarın qaçması üçün lazım olan açarı bacımdan aldım"

## Həbsdə olan Fədayə Laçının istintaqa ilkin ifadəsi məlum olub

**Xüsusi təyinatlı qatardan qaçan məhbuslarla bağlı həbs edilən müğənni Fədayə Laçının ibtidai istintaqa verdiyi ifadə məlum olub. APA-nın xəbərinə görə, istintaqa ifadəsində F. Laçın qatardan qaçan və sonradan zərərsizləşdirilən "Qoca" ləqəbli Etibar Məmmədovla münasibətlərindən danışıb.**





O deyib ki, E. Məmmədovu 2013-cü ildən tanıyır: "Həmin il Hacıqabul rayonunda toyda olarkən Etibarın qardaşı Azadın toyunda da müğənni kimi iştirak etmişəm. Etibarı onda tanımışam. Lakin həmin vaxt onunla heç bir münasibət qurmamışam. Təxminən 2015-ci ilin avqustunda Şirvan şəhərində toy məclisində olarkən müğənni yoldaşlarımdan adı yadımda qalmayan şəxs mənə Hacıqabul rayonunda bir nəfərin ad günündə 1-2 saatlıq oxumağı təklif edib. Mən də həmin müğənni yoldaşın dedikləri ilə razılaşdım, axşam saat 21 radələrində toydan çıxdım. Şadlıq evinin qarşısında gözləyən maşının müşayiəti ilə Hacıqabul rayonuna getdim. Həmin məclisdə 4-5 mahnı ifa etdim. Orada mənə məlum oldu ki, həmin məclis Etibar Məmmədovundur. Həmçinin məclisdən çıxarkən özünü mənə Etibarın arvadı kimi təqdim edən Mahuzər adlı qadın barmağıma üzük taxdı, Etibarın adından hədiyyə olduğunu dedi. Mahuzər məndən mobil nömrəmi istədi. Mən də istifadə etdiyim mobil nömrəni ona verdim. Aradan təxminən 10 gün keçəndən sonra "votchap"da mesaj gəldi. Baxanda mesajı yazan şəxsin Etibar olduğunu gördüm. Mənə "Etibaram, nə sözün olsa, mənə yaza bilərsən" - məzmunda mesaj yazmışdı. Mən də ona cavabımda "Salam Etibar, necəsən, dostum? Yaxşısanmı?" yazdım. Sonra Etibarla yazışmağa başladıq. Onda bildim ki, Etibar qəzəllər, şeir yazmaqla məşğuldur. Özüm də şair təbiətli insan olduğumdan qəzəlləri, şeiriyyatı xoşlayıram. Etibarın da qəzəlləri, şeirləri çox xoşuma gəldi. Həmin vaxtdan Etibara yaxınlıq etməyə başladım. Ümumiyyətlə, bir-birimizi sevdik".

**2015-ci ildə Etibar Məmmədovun həbs olunmasından danışan F.Laçın bildirib ki, həmin il noyabrın 5-də ölüm hadisəsi baş verib:** "Bir qədər sonra Etibar Məmmədov "Abdulla" kimi tanıdığım, əsl adı Ağami Əli adlı şəxslə və "Tahir Maqa" ilə birlikdə həbs olundu. Etibar həbs olunduqdan sonra onunla danışa və ya yanına gedə bilməmişəm. Həmin ilin noyabrında məhdudiyyət aradan qaldırıldıqdan sonra Etibar mənimlə telefonla danışmağa başladı".

**Fədayə Laçının sözlərinə görə, 2017-ci ilin mayında istintaq təcridxanasında ilk dəfə E. Məmmədovla görüşüb, həmin görüşə tək gedib. O qeyd edib ki, Lerik rayonunda konsertdə olan zaman E. Məmmədovun iyulun 2-də qatarla Lənkərana gələcəyi ona məlum olub:** "2 və 3 iyul tarixlərində Etibar mənə zəng etdi və harada olduğumu soruşdu. Ona Lerikdə olduğumu dedim. Etibar mənə Lənkəranda polis şöbəsində saxlandığı yerə gəlməyimi, onunla görüşməyimi istədi. Mən də zəng olunan gündən bir gün sonra saat təxminən 17 radələrində polis şöbəsinə gəldim. Həbsdə olan şəxslərin saxlandığı yerə polis əməkdaşlarının müşayiəti ilə daxil oldum. Həmin vaxt polislər məni bir otağa keçirdilər, az sonra Etibarı da ora gətirdilər. Biz polisin yanında 15 dəqiqə görüşdük. Sonra oradan ayrıldıq. 2017-ci ilin avqustunda Etibar mənə zəng etdi. Danışıq əsnasında Bakı Dəmiryolu Vağzalına Bakı-Astara qatarının yanına gələrək, dustaqların daşınması vaqonuna yaxınlaşdım. Məni hərbi geyimli bir şəxs qarşıladı, dəhlizdəki bir otağa keçirdi. Etibarın hamı kimi barmaqlıqlar arxasında deyil, iki nəfər üçün nəzərdə tutulmuş kupedə olduğunu gördüm. Həmin kupeyə daxil olan zaman oranın pəncərəsində dəmir barmaqlıqlar, pərdə vardı. Otaqda hər bir şərait var idi. Belə başa düşdüm ki, həmin kupe bələdçiyə aid olub. Etibarın yanına keçən zaman nəzarətçi üstümü yoxlamadı, onun yanına buraxdı. Həmin gün Etibarla bələdçinin otağında Biləcəri stansiyasına kimi getdik. Orada vaqondan düşdüm".

**F.Laçın qeyd edib ki, təxminən sentyabr ayında ona E. Məmmədovun Aqil adlı dostunun istifadəsində olan mobil telefon nömrəsindən zəng gəlib:** "Etibarla danışmağa başladım. Orada Etibar dedi ki, sabah onun yanına gəlim. Ertəsi gün istintaq təcridxanasına gedərək 4 saat orada oldum".

**F. Laçın deyib ki, E. Məmmədov ondan dəmiryolçuların vaqonlarda istifadə etdiyi üçkünc açarı taparaq onun dostu Aqilə verməyini xahiş edib:** "Məsələ burasında idi ki, Etibar bacım Telli Balakişiyevanın Bakı-Tiflis qatarında rəis işlədiyini bilirdi. Etibarın bu istəyini yerinə yetirəcəyimə söz verdim. Bir müddət sonra həmin açarın qıfılının şəklini Etibar "Votchap"la mənə göndərdi, açarı götürüb-götürməyəcəyimlə maraqlandı. Ehtimal etdim ki, Etibar həmin açardan vaqondan qaçmaq üçün istifadə edə bilər. Bu səbəbdən Tellidən həmin açarı Etibar üçün götürməyə tələsmirdim. Hər dəfə Etibarla danışanda təkidlə tələb edirdi ki, açarı Tellidən götürərək, onun dostu Aqilə verim. Hətta Etibar bu səbəbdən bir müddət məndən küsdü və danışmadı. Sonra ona dedim ki, açar bir nəfərdə var, zəng edib götürmək lazımdı. Etibar dedi ki, Aqil zəng vuracaq, açarı götürəcək. Həmin ərəfədə xəstə olduğum üçün mobil telefonumu söndürdüm, evdən çölə çıxmırdım. Bir və ya iki gün sonra mobil telefonumu açanda gördüm ki, Aqil zəng edib. Aqilin telefonunu yığaraq açarı tapdığımı bildirdim. Ona bacım Tellinin tanışı Ədalətin telefon nömrəsini verdim ki, açarı ondan götürsün. Bildiyimə görə, Aqil Ədalətlə görüşüb, açarı ondan alıb".

**F.Laçının sözlərinə görə, E. Məmmədov bir neçə gün sonra həmin açarı qatardan qaçmaq üçün istifadə edib:** "Bundan sonra telefonumun yaddaşından Etibarla yazışmanı sildim. Lakin ola bilsin ki, fotoşəkillər telefonun ayrı yerində qalmış olsun. Bacım Tellinin Etibarın qaçması planından xəbəri olmayıb".

**Xəbər verdiyimiz kimi, Tarif Şurası ictimai nəqliyyatda gediş haqqını artırıb. Şuranın qərarı ilə metro, şəhərdaxili və şəhərlərarası sərnişindaşımada gediş haqları 50 faiz qaldırılıb.**





# Qiymət artdı, qiymətləndirmə davam edir - TŞ-nin qərarına fərqli baxış





## Pərviz Heydərov: “Hər bir addımın əsası var”
## Qubad İbadoğlu: “Bu qərar növbəti qiymət artımları üçün əsas yaradacaq”

Yeni qiymətlər bu gündən qüvvəyə minəcək.

**Tarif Şurasının qərarını dəyərləndirən iqtisadçı alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğlu hesab edir ki, qərar ilk növbədə taksi xidmətlərinin və kənd təsərrüfatı məhsullarının qiymətini bahalaşdıracaq və növbəti qiymət artımları üçün əsas yaradacaq:** “Tarif Şurası çoxdan gözlənilən qərara imza atdı. Həqiqətən də Azərbaycanda ictimai nəqliyyatda mövcud qiymətlər digər ölkələrlə müqayisədə aşağıdır. Amma metro kimi əhalisinin üçdə birinin yaşadığı Bakı şəhər sakinlərinin əsas nəqliyyat vasitəsində gediş qiymətində tarifin 50 faiz bahalaşması ilk növbədə inflyasiyaya artırıcı təsir göstərəcək. Çünki metroda gediş haqqı inflyasiyanın hesablanması üçün istifadə edilən istehlak səbətində 5-ci xüsusi çəkiyə malik xidmət hesab edilir.

İctimai nəqliyyatda gediş haqlarının bahalaşması eyni zamanda taksidə də gediş haqlarının artımını şərtləndirəcək. Hesab edirəm ki, 30 qəpik gediş haqqı keçid xarakteri daşıyacaq. Bir müddətdən sonra 10 qəpik çatışmazlığı bəhanəsi ilə qiymətlər 40 qəpiyə yüksələcək. Bu, sadəcə, nəbz yoxlamasıdır".

**Bununla yanaşı, iqtisadçı-alimə görə, bu qərar digər sahələrdə gözlənilən qiymət artımlarının reallaşmasını sürətləndirəcək:** “Çox güman ki, kənd təsərrüfatı mövsümü başa çatan kimi dizel yanacağının və mazutun də qiyməti bahalaşacaq. Metroda və digər ictimai nəqliyyat vasitələrində gediş haqlarının qiymət artımının neqativ təsirlərini neytrallaşdırmaq üçün hökumət xüsusilə də aztəminatlı və ictimai nəqliyyatdan müntəzəm olaraq istifadə edənlərin xərclərinin tənzimlənməni üçün qərarlar qəbul etməlidir. Təklif edirəm ki, tələbələr üçün gediş haqlarının əvvəlki səviyyədə, yəni 20 qəpik olmasını təmin edən xüsusi güzəştli ödəniş kartları dövriyyəyə buraxılsın. Bununla yanaşı, metrodan və digər ictimai nəqliyyat vasitələrindən istifadə etmək üçün aylıq, həftəlik, 3 günlük və 1 günlük ödəniş kartları güzəştli qiymətlərlə satışa çıxarılmalıdır.

Müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə 1 kilometr üçün tarifin 2,4 qəpiyə qaldırılması xüsusilə də mövsüm dövründə rayondan şəhərə daşınan kənd təsərrüfatı mallarının qiymətinə bahalaşdırıcı təsir göstərəcək".

**Q.İbadoğlunun fikrincə, əgər hökumət həqiqətən də Tarif Şurasının qərarında göstərildiyi kimi, ictimai nəqliyyatda xidmət səviyyəsinin davamlı olaraq yüksəldilməsinə, nağdsız ödəniş sisteminin tətbiqinin genişləndirilməsinə, metro nəqliyyatı üzrə dövlət büdcəsindən asılılığın azaldılmasına nail olmaq istəyirsə, onda yalnız gediş haqqını artırmaqla işini bitmiş hesab etməli deyil:** “Bunun üçün xüsusilə də dövlət büdcəsindən subsidiya alan metroda şəffaflıq və hesabatlılıq təmin edilməli, 1 sərnişinin daşınmasının maya dəyəri, onun məsrəf elementləri, metronun gəlirləri və xərcləri barədə ictimaiyyət müntəzəm məlumatlandırılmalıdır. Bundan əlavə, metro da daxil olmaqla, Bakı şəhər nəqliyyatının eyni mərkəzdən idarəetmə sistemi yaradılmalı, zamana görə vahid bilet satışı tətbiq olunmalıdır. Belə olan halda 1 dəfə gediş haqqını ödəyən sərnişinin müəyyən zaman fasiləsində müxtəlif ictimai nəqliyyat vasitələrindən istifadə hüququ tanınmalıdır. Məsələn, 30 qəpiklik bilet sərnişinə 1 saat ərzində həm metroda və həm də avtobusda gediş haqqı verməlidir”.

**İqtisadçı-ekspert Pərviz Heydərov bildirir ki, Tarif Şurasının qərarı bir qədər gecikmiş addımdır:** “Düzdür, iqtisadiyyatın bütün sahələrində qiymət dəyişiklikləri həmişə əhalinin, xüsusilə də alıcı və xidmət istifadəçilərinin narazılığı ilə qarşılanır. Və bu da haradasa başadüşüləndir. Amma hər bir addımın əsası var, xüsusən söhbət dövlət tərəfindən tənzimlənən qiymətlərdən gedirsə... Həqiqətən də avtobuslarda gediş haqqı axırıncı dəfə 11 il əvvəl, metroda isə 7 il əvvəl qaldırılıb. Tarif Şurasının qərarında artım üçün müraciət edən qurumların əsaslandırması verilib: yeni avtobuslar gətirilib, ehtiyat hissələr bahalaşıb və sair. Bu, onların izahatıdır və həmin sahənin özünə aid məsələlərdir. Gəlin təkcə bu son illərdə iqtisadiyyatda baş verən dəyişikliklərə nəzər salaq. Əvvələ, 2015-ci ildə 2 dəfə devalvasiya baş verdi, 2016-cı ildə manat daha 15 faiz ucuzlaşdı. Bununla bağlı olaraq bütün sahələrdə qiymətlər qalxdı. Keçən il inflyasiya rəsmi olaraq 14,9 faiz etiraf olundu, müəyyən sahələrdə bundan da yüksək idi. Bunları nəzərə almaq lazımdır. İkinci səbəb, 2015-ci ildən sonra enerjidaşıyıcılarının qiyməti qalxıb. Keçən ilin iyununda A92 markalı benzinin qiyməti 90 qəpiyə qaldırılıb. Elektrik enerjisinin qiyməti 2016-cı ilin yayında bir dəfə artırılıb, dekabrında da bir dəfə. Diferensiallaşdırmaya baxmayaraq qazın qiyməti də artıb. Yəni baş verən bu artımlarla müqayisədə ictimai nəqliyyatda gediş haqları elə də ciddi artım sayıla bilməz. Xüsusilə metrodakı artım dövlətin metropolitenə ayırdığı subsidiyanın çox cüzi bir hissəsini kompensasiya edir. Bildiyiniz kimi, bu qurum dövlətin boynunda böyük bir yükdür. Bax bunları da nəzərə almaq lazımdır”.

**P.Heydərova görə, mövcud nəqliyyat infrastrukturu, nəqliyyatın xərcləri daha çox tələb etsə də, artım elə ciddi deyil:** “Hökumət məlum səbəblərdən çox cüzi artıma getdi. Digər tərəfdən, artım qərarının vaxtı da uğurlu seçilib. Sentyabrdan yeni dərs ili, qaynar həyat başlayacaq. Bu qərar onda qəbul olunardısa, daha böyük narazılıqla qarşılanardı. Bir məsələni də nəzərə alaq ki, ictimai nəqliyyatda gediş haqları özəl sektor tərəfindən müəyyənləşsəydi, burada artım 7-11 ildən bir deyil, demək olar ki, hər il müşahidə edərdik. Yəni biz şükür etməliyik ki, bu sahədə qiymətlər dövlət tərəfindən tənzimlənir”.

**İqtisadçı-ekspert də hesab edir ki, növbəti mərhələdə dizel yanacağının qiymətinin artması gözləniləndir:** “A92 markalı benzinin qiyməti ötən il qaldırılıb, A95 və A98 markalı benzinlərin qiyməti isə sərbəstdir. Lakin hazırda Heydər Əliyev adına neftayırma zavodunda istehsal qurğusu təmirə dayandırılıb. Ölkənin A92 markalı benzinə tələbatı daxili ehtiyatlar hesabına təmin olunur. Əgər təmir qurtaranadək o ehtiyatlar yetərli olmasa, A92 markalı benzin müəyyən müddətə xaricdən idxal olunacaq. Belə olarsa, onun qiymətində artım ola bilər. Dizelə gəlincə, düşünürəm ki, bu yanacağın qiyməti qış aylarında qaldırılacaq. Çünki kənd təsərrüfatı bu yanacağa həssasdır, bu baxımdan, mövsümün başa çatmasının gözlənəcəyini düşünürəm”.

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin yaydığı açıqlamaya görə, 2007-ci ildən bəri nəqliyyat parklarının istismar və daşıma xərcləri artıb:** “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti Bakı, Sumqayıt və Gəncə şəhərləri istisna olmaqla respublikanın digər şəhər və rayonlarında da şəhərlərarası daşımalarla bağlı dövlət tənzimlənməsini həyata keçirir. Bu sahədə xidmət ayrı-ayrı hüquqi və fiziki şəxslər tərəfindən göstərilir. Təbii ki, digər sahələrdə olduğu kimi, sərnişindaşımada da xidmət keyfiyyətinin artırılması daşıyıcılar qarşısında qaldırılsa da, sərnişindaşıma tariflərinin aşağı olması daşıyıcılara avtobus parkının yenilənməsi üçün investisiya qoyuluşuna imkan vermirdi. Və daşıyıcılar uzun müddətdir ki, bu problemin həlli ilə bağlı nazirliyə və digər müvafiq qurumlara çoxsaylı müraciətlər edirdi. Bu müraciətlər əsasında mövcud vəziyyət detallı təhlil edilərək xidmət keyfiyyətinin artırılması, avtobus parkının yenilənməsi, müasir və dayanıqlı daşımanın həyata keçirilməsi üçün tariflərə yenidən baxılması məqsədəmüvafiq hesab olunaraq Tarif Şurasına müraciət edilib”.

Xidmətdən bildirilib ki, tariflərin yuxarı həddinin yenidən müəyyən olunması sərnişindaşıma fəaliyyəti göstərən daşıyıcılara maliyyə vəziyyətini sağlamlaşdırmaq və nəticədə vətəndaşa daha yüksək və keyfiyyətli xidmət tələbinin mərhələli şəkildə icrasına gətirib çıxaracaq.

**Bakı Nəqliyyat Agentliyi də qərarla bağlı açıqlama yayıb. Açıqlamada qeyd olunur ki, Tarif (qiymət) Şurasının iyulun 30-da təsdiqlədiyi yeni tariflər ictimai nəqliyyatda sərnişindaşıma xidməti üzrə artan xərclərin qarşılanmasına, avtobus parkının yenilənməsinə, nəqliyyat vasitələrinin saz vəziyyətdə saxlanılmasına və son nəticədə isə bu sahədə xidmət səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərəcək:** “Bu səbəbdən də bu sektorda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər təhlükəsiz və keyfiyyətli sərnişindaşıma işinin təşkilinə daha ciddi və məsuliyyətlə yanaşmalıdır. Eyni zamanda bütün müntəzəm marşrut xətləri üzrə daşıyıcılar nağdsız ödəniş sisteminə keçidi də sürətləndirməlidir. Vətəndaşa rahat və təhlükəsiz nəqliyyat xidmətlərinin göstərilməsini hər zaman qarşısına prioritet məqsəd qoyan Bakı Nəqliyyat Agentliyi bir daha xəbərdarlıq edir ki, işinə laqeyd və məsuliyyətsiz yanaşan daşıyıcılar marşrut şəbəkəsindən kənarlaşdırılacaq. Bütün müntəzəm marşrut xətlərinin müsabiqəyə çıxarılması ilə bağlı qərarın qəbulu da məhz bu məqsədə xidmət edir”.

**“Bakı Metropoliteni” QSC-nin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov isə bildirib ki, artımı zəruri edən səbəblər var:** “Metroda bir sərnişindaşımanın istismar xərcləri 47 qəpiyə bərabərdir. Bu tarif dəyişikliyindən sonra da arada 17 qəpiklik bir fərq olacaq. Bu qiymətə yalnız istismar xərcləri daxildir: metro tikintisi - stansiyaların, tunellərin tikintisi, xətlərin inşası. Bura yeni qatarların alınması, mövcud qatarların əsaslı təmiri, modernləşdirilməsi, mövcud stansiyaların və infrastrukturun yenidən qurulması və əsaslı təmiri, bunların heç biri 47 qəpiyə daxil deyil. Qiymətləri postsovet məkanı ilə müqayisə etsək, məsələn, bu yaxınlarda Kiyevdə qiymətlər artırılıb, bizim məzənə ilə 41-50 qəpik arası dəyişir. Belarusda Minsk metrosunda gediş haqqı 55 qəpikdir. Özbəkistanın paytaxtı Daşkənddə 37 qəpikdir. Postsovet məkanına nəzər salsaq yenə də ən ucuz tariflər Bakı metrosundadır. Rusiyanı xüsusilə qeyd etmək istəyirəm. Rusiyanın elə metro stansiyası yoxdur ki, orada qiymətlər Bakı metrosundan qat-qat artıq olmasın. Halbuki orada metro təchizatından söhbət gedirsə böyük potensialı olan ölkədir. Həmin ölkənin metro sahəsi ilə bağlı istehsal gücü var. Biz isə əsas metro təchizatımızı xarici ölkələrin, xarici valyuta hesabına edirik”(APA).

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 163 (7052) 1 avqust 2018




# Cahangir Hacıyevi Londondan da vurmağa başladılar - mülklərinə həbs qoyulur

## Sabiq bankirin arvadı İngiltərə Milli Cinayət Agentliyinin diqqətini 16 milyon funt sterlinq dəyərində alış-verişlə cəlb edib; Zamirə Hacıyevanın Böyük Britaniyadakı mal varlığı təhlükədə; ölkədən böyük miqdarda vəsait çıxaran oliqarxların və onların ailələrinin aqibəti yaxşı görünmür

**Azərbaycan Beynəlxalq Bankının keçmiş sədri, 15 illik həbsə məhkum olunmuş Cahangir Hacıyevə qarşı yeni cinayət işi başlanmasına dair məlumatlardan sonra onun Böyük Britaniyada yaşayan xanımının da işinin dolaşdığı məlum olub.**

Xatırladaq ki, C.Hacıyevin barəsində yenidən cinayət işinin qaldırılacağına dair "Yeni Müsavat" bir neçə ay əvvəl məlumat vermişdi. Belə ki, bu ilin yanvarında onun ən yaxın adamlarından hesab olunan Emin Sadıq qonşu ölkələrdən birində yaxalanıb və Bakıya ekstradisiya olunub. İstintaqın versiyasına görə, E.Sadiq Cahangir Hacıyev və Beynəlxalq Bank işi üzrə əsas fiqurantlardan biridir, bankın talanmasına yönəlmiş maliyyə maxinasiyalarının birbaşa iştirakçısıdır. E.Sadiq konkret olaraq Qazaxıstanda neft yatağının istismarına yönəlmiş investisiyanın mənimsənilməsində ittiham olunur. Söhbət Azərbaycan Beynəlxalq Bankının Rusiyadakı törəmə bankı "MBA-Moskva" tərəfindən ayrılmış 60 milyon dolların mənimsənilməsindən gedir. Habelə E.Sadiq "MBA-Moskva" bankına veksellərin satışında dələduzluq əməlinə yol verib.

Maraqlıdır ki, elə yanvar ayında hüquq-mühafizə orqanları sabiq milli təhlükəsizlik naziri, C.Hacıyevin qudası və biznes şəriki Eldar Mahmudovun ortaqlarından biri Sahib Ağayevi də Qazaxıstanda saxlayaraq, Bakıya gətiriblər.

İndi isə Beynəlxalq Bankdakı mənbələrin məlumatına görə, sabiq rəhbər C.Hacıyev bu dəfə də mənimsəmədə ittiham edilir. Ona qarşı Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə) maddəsi ilə ittiham irəli sürülüb. Xəbərə görə, C.Hacıyev bankın Moskva filialındakı yeyintilərlə bağlı dindirilir. Onun həmin filialda maxinasiya edərək dövlətin və bankın pulunu öz şəxsi mənafeləri üçün mənimsədiyi iddia olunur. Hazırda istintaq bankdakı sənədlər və pul köçürmələri əsasında araşdırmanı davam etdirir.

**C.Hacıyevin vəkili Aqil Layıcov "Yeni Müsavat"a açıqlamasında istintaq orqanından ona müdafiə etdiyi şəxs barəsində yeni cinayət işinin qaldırılmasına dair məlumat verilmədiyini bildirib:** "Bu günə qədər mənə belə məlumat verilməyib".

Bu günlərdə isə Böyük Britaniyanın məşhur "Daily Mail" qəzeti Azərbaycanla bağlı maraqlı yazı dərc edib. Yazıdan aydın olur ki, Londonda yaşayan bir azərbaycanlı qadına qarşı iş qaldırılıb. Buna səbəb onun "Harrods" adlı ticarət mərkəzində 10 il ərzində 16 milyon funt sterlinq dəyərində alış-veriş etməsinin aşkara çıxarılmasıdır. Bu məlumatı əldə edəndən sonra qadınla bağlı araşdırma aparan Böyük Britaniya Milli Cinayət Agentliyi müəyyən edib ki, bu şəxsin Londonda iki mülkü var və onların dəyəri 22 milyon funt sterlinqdir.

Milli Cinayət Agentliyi bu il korrupsiya və çirkli pullarla mübarizə ilə bağlı qəbul olunmuş qərara uyğun olaraq bu addımı atıb. Agentlik bu məsələ ilə bağlı Ali Məhkəməyə müraciət edib və məhkəmə artıq araşdırma prosesinə başlayıb.

O da bəlli olub ki, qadının əri xarici ölkədə bankir kimi fəaliyyət göstərib və hazırda həbsxana həyatı yaşayır. Milli Cinayət Agentliyi müəyyən hüquqi səbəblərdən hələlik qadının adını elan etməyib. Londonda 22 milyon funt sterlinqlik daşınmaz əmlakı olan bu qadın əmlakın qanuni gəlirlə əldə edilməsini sübut edə bilməsə, onların müsadirə ediləcəyi gözlənilir.

Milli Cinayət Agentliyi hesab edir ki, qadına məxsus bu iki evi onun əri bankirlik edərkən qanunsuz yolla əldə edib.

Araşdırmalar nəticəsində müəyyən olunub ki, 55 milyon funt sterlinqlik varidatı olan bu ailə 10 il əvvəl Böyük Britaniyada investor vizası alıb.

Milli Cinayət Agentliyini məhkəmədə təmsil edən Conatan Xoll bildirib ki, "qadın 10 il ərzində "Harrods" ticarət mərkəzində 16 milyon funt sterlinq pul xərcləyib və bu məbləğin necə əldə edildiyini müəyyənləşdirmək istəyirik".

Bankirin xanımı məhkəməyə təqdim etdiyi izahatda ərinin bu pulları uğurlu biznes fəaliyyəti nəticəsində əldə etdiyini iddia edib. Milli Cinayət Agentliyinin nümayəndəsi qadının izahatında irəli sürdüyü fikirlərlə razı olmadıqlarını deyib. Buna səbəb onların qadının dövlət bankında işləmiş ərinin uğurlu biznes fəaliyyəti ilə bağlı internet məlumatlarını tapa bilməmələridir.

Cənab Xoll deyir ki, adam uğurlu biznesmen idisə, niyə onun belə fəaliyyəti ilə bağlı açıq mənbələrdə heç nə yoxdur?

Qadının vəkili Ceyms Lyuis Milli Cinayət Agentliyini müdafiə etdiyi şəxsin əri haqqında həqiqətə uyğun olmayan mövqedə günahlandırır. Vəkil bildirir ki, qadının əri doğrudan da uğurlu iş adamı olub. Lyuis onu da qeyd edib ki, qadının əri ölkəsində ədalətsiz məhkəmə hökmü nəticəsində həbsxanadadır. Vəkil hesab edir ki, qadının əri nə qədər ki, həbsxanadadır, əmlakın qanuni gəlirlə əldə edilməsini sübut edə bilməz. Bunun üçün onun ərinin azadlıqda olması lazımdır.

Virtualaz.org-un əldə etdiyi məlumata görə, məqalədə söhbət Azərbaycan Beynəlxalq Bankının keçmiş rəhbəri Cahangir Hacıyevdən və onun həyat yoldaşı Zamirə Hacıyevadan gedir.

Xatırladaq ki, Britaniyada son vaxtlar "çirkli pullar"la mübarizə tədbirləri daha da sərtləşdirilib. Böyük Britaniya hökuməti hələ ötən ilin aprel ayında korrupsiya ilə mübarizə çərçivəsində dünyada ilk dəfə olaraq oliqarxların daşınmaz əmlakının xüsusi reyestrini yaratmaq qərarı verməişdi. Bu ilin yanvarında isə Cinayətkarlıqla Milli Mübarizə Agentliyinə verilən yeni səlahiyyətlər bu ölkəyə gəlmiş istənilən şübhəli aktivləri təftiş etməyə imkan verir. Mənşəyi bəlli olmayan mülk haqqında qanun bu ilin yanvar ayında qəbul edilib. Qanun şübhəli bilinən şəxslərdən aktivlərinin mənşəyini qeyd etməsini tələb edir. Həmçinin bu ölkəyə 50 min funt sterlinqdən artıq sərmayə qoyanlar onun mənbəyini göstərməlidirlər.

Qanun qəbul olunarkən "Yeni Müsavat" olaraq onun tətbiqinin Böyük Britaniyada varidatı olan azərbaycanlı oliqarxları, məmur yaxınlarını da çətin duruma salacağını qeyd etmişdik. Son hadisələr göstərir ki, artıq proses başlanıb.

Xatırladaq ki, ötən il sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun da Londonda dəyəri milyonlarla dollar olan mənzil aldığı xəbəri yayılmışdı. Xəbərdə deyilirdi ki, Londonun mərkəzində tikilmiş çox bahalı "One Hyde Park" yaşayış kompleksində mənzil sahiblərindən biri də Anar Məmmədovdur. Təxminən 1,7 milyard dollara başa gələn dünyaca məşhur dəbdəbəli kompleksdə mənzillərin kvadrat metri 100 min dollardan başlayır. Kompleksdə ən ucuz mənzilin dəyəri 29 milyon dollardır.

Baş nazirin keçmiş müavini İsmət Abbasovun da oğlu üçün Londonun dəbdəbəli Doklands məhəlləsində çoxmənzilli 2 mərtəbədən ibarət böyük və lüks bir penthaus malikanə aldığı barədə dəfələrlə xəbərlər yayılıb. Bildirilir ki, bu mülk üçün 1,4 milyon funt-sterlinq ödənib.

Onu da qeyd edək ki, Böyük Britaniya, London yalnız Azərbaycandan deyil, dünyanın əksər ölkələrindən olan oliqarxların seçim yeridir. Dünyada "ofşorlar anası" kimi tanınan Britaniya vergidən azad "cənnətləri" ilə tanınır. Buna görə də varidatını qanundan yayındırmaq istəyən şəxslər dünyanın hər yerindən bu ölkəyə axışırlar. Lakin son zamanlar başladılan proseslər, çirkli pullara, şübhəli mülklərə dair araşdırmalar çoxlarının canına qorxu salıb, yerlərini narahat edib.

Londonda Z.Hacıyevanın mülkləri və xərcləmələri ilə bağlı başladılan prosesdə Azərbaycan hakimiyyətinin də rolunun olması mümkündür. Belə ki, bu proses C.Hacıyev-E.Mahmudov tandeminin Qərb qolunun sıradan çıxarılması əməliyyatının tərkib hissəsi sayıla bilər. Azərbaycanın hüquq-mühafizə orqanlarının əlində Hacıyevlərin Britaniya mülklərinin qanunsuz əldə olunmuş pullarla alındığını sübuta yetirəcək dəlillər yetərincədir. Nəzərə alsaq ki, Z.Hacıyeva Beynəlxalq Bank işi üzrə əsas firuqantlardan, bankdakı maliyyə fırıldaqlarına dair çox məlumatlı şəxslərdən biridir, Azərbaycan hakimiyyətinin əlindəki dəlilləri həvəslə Britaniya hüquq-mühafizə orqanlarına təqdim edəcəyini söyləyə bilərik.

**Hüquqşünas Əkrəm Həsənov hesab edir ki, C.Hacıyevə qarşı yeni cinayət işinin qaldırılması mümkündür:** "Xüsusən də Moskva filialı ilə bağlı belə bir cinayət işinin qaldırılması realdır. Bilirsiniz, Moskva filialının fəaliyyətindəki problemləri, yol verilən qanunsuzluqları araşdırmaq üçün müəyyən müddət tələb olunurdu. Hər hansı bir işi bağlayanda, orada baş verən qanunsuzluqları daha rahat aşkara çıxarmaq olur. Bu baxımdan, Moskvadakı filialın işi üzrə yeni faktlar əsasında cinayət işinin başlanması mümkündür. Düzünü deyim, birinci cinayət işi başlananda mən təəccüblənirdim ki, ittihamlar elə bu qədərdir? Mən özüm uzun müddət bank sistemində işləmişəm, Beynəlxalq Bankda hansı qanunsuzluqların baş verdiyini hamı bilirdi".

**Hüquqşünas deyir ki, Azərbaycan hüquq-mühafizə orqanları qanunsuz gəlirlər hesabına əldə olunduğunu isbatlayan dəlillər təqdim edərlərsə, Hacıyevlərin Böyük Britaniyadakı mülklərini geri ala bilərlər:** "Əvvəla, qeyd edim ki, C.Hacıyev kimi tədbirli insanlar əmlakı, vəsaitləri öz adlarına saxlamırlar. Hansısa ofşorlarda qeydiyyatdan keçən şirkətlərdən istifadə edirlər. Bu baxımdan, C.Hacıyevin adına nəyinsə olacağını gözləmirəm. Amma yoldaşının adına nəsə varsa və mənşəyi araşdırılırsa, ilk növbədə ona qarşı burada cinayət işi açılmalıdır. Bu iş çərçivəsində dəlillər Britaniyaya təqdim oluna bilər. Sübutlar yetərli olsa, qarşı tərəfi qane etsə, əmlakı geri almaq mümkün olar. Lakin birdəfəlik bilmək lazımdır ki, heç bir halda dövlətə vurulan zərəri tam bərpa etmək mümkün deyil. Çünki talanan pulların bir xeyli hissəsi xərclənib, ofşorlara yatırılıb və sair. Amma bütün bunlara rəğmən, bu istiqamətdə işlərin davam etdirilməsi mütləq lazımdır".

Onu da qeyd edək ki, Hacıyevlərin işi Azərbaycan hakimiyyətində təmsil olunaraq milyonlar qazanan digər məmurlar üçün də ibrət dərsi sayıla bilər: hara getsələr də, əvvəl-axır ölkəyə qaytarılacaqlar.

"Yeni Müsavat" bu məqamda biznesmen Hüseyn Abdullayevin işini xatırladır. Avropaya üz tutmasına rəğmən hakimiyyət onu İstanbulda tutaraq ölkəyə gətirməyi bacardı. Bəzi məlumatlara görə, onun həbsində yalnız siyasi mövqeyi deyil, sahibi olduğu 1 milyard dollara yaxın varidatı da mühüm rol oynayıb. Bu qədər pulun Hüseyn Abdullayev kimi proqnozlaşdırılmayan bir adamın nəzarətində qalması, təbii ki, istənilən hökuməti narahatsız edərdi. Hazırda həmin varidatın böyük bir qisminin H.Abdullayevin anası Zeynəb Abdullayevanın adına olduğu deyilir. Xatırladaq ki, Zeynəb Abdullayeva 2016-cı ildə Azərbaycanı gizli şəkildə, qanunsuz yolla tərk edib.

❑ **İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**



# Qəribi niyə gülmək tutur?

**Samir SARI**

**Hərdən yeri gələndə dostlardan, həmkarlardan biri ölkədəki xoşagəlməz hadisə və proseslərə işarəylə deyir: "Bəxtimiz gətirsəydi, Fransada doğulsaydıq...".**

Bəzən bu cümlənin əlverişli coğrafi məkanı ifadə edən xüsusi isimi olaraq Norveçin, İngiltərənin, Hollandiyanın, İsveçin, Almaniyanın, Kanadanın adını çəkənlər də olur. Ancaq mən bir dəfə məhz Fransada doğulmağı bəxt işi hesab edən həmkarıma belə demişəm: "Qardaş, vallah, bu bəxt ki, bizdədir, Fransada doğulsaydıq da, Napoleonun vaxtında doğulacaqdıq, o da 1812-də bizi gətirib Borodinoda qırdırıb gedəcəkdi".

Yəni, hansısa firavan, yüksək rifahlı ölkədə doğulmaq hələ avtomatik olaraq xoşbəxt olmaq deyil.

7 il əvvəl norveçli xoşbəxt uşaqlar, yeniyetmələr Oslo yaxınlığındakı Utoya adasında dincəlməyə, kamp qurub əylənməyə getmişdilər. Kənardan baxan deyərdi, oh, may qad, nə xoşbəxt uşaqlardır, sağlam, qayğısız, firavan. Amma nə oldu? Breyvik soyadlı bir psixopat qatil ortaya çıxdı, o xoşbəxt insanların 77-sini bədbəxt elədi.

Bədbəxtlik gələndə baxmır ki, bura İsveçdir, Hollandiyadır, Kanadadır. Adlarını çəkdiyim ölkələrdə də qəzalar, fəlakətlər, terror aktları, cürbəcür bədbəxt hadisələr baş verir və dünənə qədər xoşbəxt yaşayan insanların ömrü yarıda kəsilir, ya şikəst olurlar.

Deyə bilərlər ki, belə hadisələr nadir hallarda baş verir və bu cür olayların ölkənin digər xoşbəxtlərinə dəxli yoxdur. Elədir.

Bir də var ellikcə bədbəxt ölkələr. Belə ölkələrdə bədbəxtlərin xüsusi çəkisi çox ağırdır. Xoşbəxtlər isə azlıqdadır. Onları qısaca "xoşbəxt azlıq" da adlandırmaq olar - "milli azlıq", "cinsi azlıq" yoxdurmu, bax, eləcə.

Bu xüsusda da ad çəkmək lazımdırsa, çəkək. Banqladeş, Nepal, Sudan (hər ikisi), Şimali Koreya, Somali, Ruanda, Zimbabve və başqaları ("və başqaları" qrafasına 100-ə yaxın ölkə daxildir) bu qəbildəndir, əhalisinin tam əksəriyyəti bədbəxtdir, aclıq, səfalət içində çabalayırlar.

Bu kimi məsələləri araşdıran beynəlxalq mütəxəssislərin yaydığı statistik göstəricilərə görə, biz nə "xoşbəxtlər" qrafasındayıq, nə də "bədbəxtlər". Biz orta yerlərdəyik. "Bədbəxlər"ə baxıb acıyır və günümüzə şükür edirik, "xoşbəxtlər"ə baxıb öz günümüzə acıyır, onlara həsəd aparırıq.

Bəzən isə günümüzə şükür etmək yaddan çıxır, özümüzü Norveçlə, İsveçrəylə, Kanadayla müqayisə edirik və aradakı fərqi görərək qəzəbnak oluruq.

Əslində, bu yaxşı şeydir. Hamı adam balası kimi rahat, sıxıntılarsız yaşamaq istəyir. Pis şey istəmirlər ki? Allaha şükür, ölkənin yerinin altı da qızıldır, üstü də. Bu sənin "ağ qızıl"ın, o "qara qızıl"ın. Heç sarı qızıla süllab satan yoxdur.

Bax, budur, gediş haqqı tarifləri 50 faiz artırılıb və insanlar narazı qalıb. Hər şey bir tərəfə, xaricdə yaşayan məzhəkəçi həmvətənlərimizin satirik damarları yoğunlayıb, götürüb yazırlar ki, bizdə gedişhaqqı, məsələn, sizin pulla 80 qəpikdir (1 manatdır, 60 qəpikdir və s.). Yəni halınıza şükür edin.

Əslində onlar bunu məzəyə yazırlar. Tərs kimi, qiymət artımını əsaslandıran, buna haqq qazandıran təbliğatçılar da bəzən eyni sözü təkrarlayırlar: "Filan ölkədə gediş haqqı filan qədərdir".

Bax, burada qəribi gülmək tutur. Qürbətdəki həmvətənlərimiz dübarə götürüb yazırlar ki, amma bizdə təqaüdçü, tutaq ki, ayda 3 min avro təqaüd alır, işləyənlərin maaşı ən azı 4-5 min avrodur.

Zeynəb xanımın məşhur mahnısında deyildiyi kimi, burda sözüm qurtarır, burda nitqim kəsilir, insaf da yaxşı şeydir...

Təbii ki, qiymət artımından rəncidə olmuş, o biri xidmət və ticarət əmtəələrinin qiymətlərinin qəfildən sıçrayacağından əndişələnən insanlar səmimi qəlbdən arzu edirlər ki, keşkə Yaponiyada doğulaydılar, sabit ölkədə yüksək maaşla, dəyişməyən qiymətlər şəraitində yaşayaydılar.

Hə, yaxşı olardı. Yaponiya da pis deyil. Amma Yaponiya xalqı indiki səviyyəsinə çatmaq üçün 50 il mübarizə aparıb, 40 baş nazir dəyişib, başına 2 atom bombası düşüb, uzun illər aclıqla mübarizə aparıb, axırda anlayıblar ki, elə yox, belə işləyəndə hamıya yaxşı olur.

Əslində bizim də bəxtimiz gətirib ki, 1945-də Naqasakidə, Xirosimada, 2013-də Fukisimada yaşayan yapon olmamışıq.

Dediyim odur ki, həsəd aparılan ölkələrdən olmaq istəyiriksə, həsəd apardığımız ölkələrdəki kimi işləməliyik, onlar kimi ağıllı, dürüst, mübariz, savadlı, şüurlu vətəndaş olmalıyıq. Onlar o cənnətləri bir gündə, cizgi filmi sürətilə yaratmayıblar...

**Bakıda "ölüm körpüsü" kimi məşhurlaşan "Koroğlu" stansiyası yaxınlığındakı körpüdə iyulun 30-da daha bir nəfər intihara cəhd etdi. Səhər saat 7:30 radələrində intihar məqsədilə körpüyə çıxan kişi həyat yoldaşının ondan boşanmaq istəməsinə etiraz olaraq intihar etmək istəyirdi.**



# İntihar üçün "ölüm körpüsü"nün seçilməsinin əsas səbəbi

## Psixoloq: "İntihar edən şəxs səssiz-səmirsiz edir..."

Hadisə yerinə gələn FHN və polis əməkdaşlarının təxminən 1 saat yaxın həmin şəxslə danışıqları fayda vermədi. Bu zaman xidməti maşını ilə Heydər Əliyev prospektində hərəkətdə olan baş nazir Novruz Məmmədov avtomobilini saxlatdıraraq hadisə ilə maraqlanıb. İntihar edən şəxslə baş nazir arasında telefon danışığı olub. N.Məmmədovun həmin şəxsi fikrindən daşındırıb. Daha sonra hadisə yerinə intihara cəhd edən şəxsin xanımı da dəvət edilib. Beləliklə, daha bir şəxs ölümdən son anda xilas edilib.

Qeyd edək ki, körpüdə intihara cəhd halları 2014-cü ilin yanvar ayından başlayıb. Burada intihara ilk cəhdi 27 yaşlı Rəfael Hümbətov etmişdi. Özünü körpüdən atan gənc xəstəxanaya çatdırılsa da onun həyatını xilas etmək mümkün olmamışdı. Körpüdəki intiharlar da elə bu hadisədən sonra başladı. R. Hümbətovdan sonra Yusif Əmirov, Fəqan Nəsibov, İlkin Abbasov, Şəhriyar Şahmarov, Nizami Musayev, Zamiq İbrahimov, Qiyamət Abdulzadə, Könül, Teymur Paşayev və başqaları "İntihar körpüsü"nə dırmandılar. Onlardan bəzilərini FHN psixoloqları fikrindən daşındırsa da, Könülün həyatını xilas etmək mümkün olmayıb. 1993-cü il təvəllüdlü Könül intihar edərkən ərazidə polisin olub-olmadığı bilinmir.

Onu da xatırladaq ki, Daxili İşlər Nazirliyinin mühafizə xidməti 2014-cü ildən intihar hallarının qarşısını almaq üçün körpü ətrafında sutkalıq iş rejiminə keçib. Hazırda asma körpüdə mühafizə polisləri xidməti maşında növbə çəkir. Maraqlıdır, niyə intihar edənlər daha çox "Koroğlu" körpüsünü seçir?



Fərqanə Mehmanqızı

**Psixoloq Fərqanə Mehmanqızının fikrincə, insanların intihar növü olaraq o körpüsünü seçməsinin səbəbi, sadəcə, diqqəti cəlb etməkdir:** ""Koroğlu" körpüsünün üstünə çıxıb intihar edəcəyini elan edənlərə inanmıram. Son hadisə də dediklərimi sübut edir. Onlar, sadəcə, diqqət cəlb etmək istəyirlər. İntihar "dəbli ölüm" kimi anlaşılır. Həyatını yaşayıb, özünü təsdiq etməyənlər ölümlə özünü sübut etməyə çalışır. İntihar edən şəxslər arasında məşhurlar da var. Bu gün insanlar hara gedirlər, şəkil çəkdirir, sosial şəbəkələrdə paylaşırlar. Bu, artıq mənəvi aclıqdan xəbər verir. Belə aktiv paylaşımlarla onlar "mən də varam" mesajı ilə özlərini təsdiq etməyə çalışır. Sosial şəbəkələrdə şəkillər, maraqlı fikirlər paylaşmaq olar, lakin hər anı bu qədər ictimailəşdirmək düzgün deyil. Bir insanın sosial şəbəkələrdəki profilinə baxın. Əgər hər anını obrazlı şəkildə ictimaiyyətin önünə qoyursa, hər addımını nümayiş etdirirsə, bilin ki, əvvəl-axır intihar edəcək. Belə hərəkətlər aclıqdan yaranır və bu aclıq intihara gətirib çıxarır. İnsanlar müxtəlif məclislərə, toylara, doğum günlərinə gedirlər, amma orada həzz almırlar. Çünki bütün məclis boyu şəkil çəkir, canlı yayım edir, paylaşırlar. İnsanın 5 duyğu orqanı var. Bunlar əslində ruhumuzun qida vasitəsidir. Məsələn, bir musiqiyə qulaq asırıq, yumşaq bir şeyə toxunuruq, xoş bir qoxu duyuruq və ruhumuz bununla qidalanır, doyur. İnsan ruhu bu şəkildə doymadıqda, başqa şəkildə bunu təmin etməyə çalışır. İnsan özünü tanımalıdır və ruhunun nə ilə doyduğunu bilməlidir. Özünü tanımamaq əslində aqressiyanın, baş verən bütün mənfi hadisələrin əsl səbəbidir. Duyğu hisslərindən yetərincə istifadə etmirik. Hətta musiqini belə ancaq insanlara nümayiş etdirmək üçün dinləyirlər".

**İntiharın əsas səbəblərindən birini psixoloq bu gün sosial şəbəkələrdə intihar edənlərin qəhrəman qismində qələmə verilməsində görür:** "Özgüvəni olmayan, özünü təsdiq etməyə ehtiyacı olanlar özünü təsdiq etməyin tək çıxış yolunun intihar olduğunu görürlər. Onlar düşünürlər ki, yaşadığı zaman heç kəs onları görmədi, heç kəs onları ciddiyə almadı, öləndən sonra göstərmək istəyirlər ki, onlar güclüdürlər və buna görə də intihar edirlər. Düşünürlər ki, intihar edəndən sonra hamı onları qəhrəman kimi görəcək, şüuraltı bu istiqamətdə özlərini qəhrəman etmək üçün intihar edirlər. İntihar edən şəxs səssiz-səmirsiz gedir. İntihar edən şəxslər açıq şəkildə bildirmirlər ki, mən filan vaxt, filan yerdə intihar edəcəyəm. Ağır depressiya keçirən insanlar hansı ki, intihara meyllidirlər, onlar özlərinə qapanıq olur və səssizliyi seçirlər. Bir də eşidirsən ki, filankəs intihar edib".

❑ **Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 163 (7052) 1 avqust 2018

# “Bu, təhlükəli, kimlərinsə işinə yarayacaq çağırışlardır”

## Ayaz Mütəllibov: “Nikol Paşinyandan soruşuram...”

**“Baxış bucağı”**

**İşğalçı Ermənistanda maraqlı proseslər baş verir. Xüsusilə də baş nazir Nikol Paşinyanın Qarabağ klanına qarşı apardığı mübarizə, ölkənin keçmiş prezidentlərinə qarşı sərt tədbirlərə start verilməsi Azərbaycanda da diqqətlə izlənilir. Sabiq prezident Ayaz Mütəllibov bu mövzuda “Yeni Müsavat”ın suallarını cavablandırdı.**

***- Ayaz müəllim, Ermənistanın eks-prezidenti Robert Köçəryanın həbs edilməsini necə dəyərləndirirsiniz? Ermənistanın baş naziri Nikol Paşinyan parlament seçkiləri öncəsi təhlükəli rəqiblərini zərərsizləşdirir, yoxsa əsas məqsədi erməni cəmiyyətini cinayətkarlardan təmizləməkdir?***

- Köçəryanın həbs olunması Ermənistanda klanlararası mübarizənin təzahürüdür. Təbii ki, hakimiyyəti yenicə ələ keçirmiş qüvvələr öz reytinqlərini daha da yüksəltmək üçün xalqın nəzərində korrupsioner ad çıxarmış keçmiş iqtidar nümayəndələrini həbs etməkdən istifadə edirlər. 20 ilə yaxın rüşvətxorluq, klançılıq üsulları ilə idarə olunan xalq bu həbsləri təqdir edir. Bu vasitə ilə onlar həm öz rəqiblərini siradan çıxarmaq istəyir, həm də hakimiyyətdə möhkəmlənmək məqsədi güdürlər.

***- Köçəryandan sonra Serj Sərkisyanın da həbsi gözlənilməndirmi?***

- Sərkisyanın da, digərlərinin də göstərdikləri “xidmətlərə” görə həbs olunmaqla “mükafatlandırılmaq şansı” var. Böyük ehtimalla bu, hələ başlanğıcdır.

***- Azərbaycan dövləti Sərkisyan-Köçəryan cütlüyünün Qarabağdakı cinayətlərini əsas götürüb onları həm də keçmiş Azərbaycan vətəndaşları kimi geri tələb edə, yaxud Beynəlxalq Məhkəmədə mühakimə edilmələrinə nail ola bilərmi?***

- Azərbaycanın nəinki onları, ölkəmizə qarşı hər hansı bir cinayəti törətmiş istənilən şəxs haqqında məsuliyyətə cəlb etmək üçün qərar çıxarmaq hüququ var. Niyə də olmasın? Əgər bu gün Paşinyan heç kimi saymadan beynəlxalq statusa malik, dünyanın ən böyük hərbi potensialarından birinə sahib olan Rusiyanın da təmsil olunduğu bir quruma rəhbərlik edən generalı tutub qandallayırsa, biz də buna oxşar addımlar ata bilərik. Lakin hadisələrə real baxmaq lazımdır, indiki vəziyyətdə onların Azərbaycana ekstradisiyası mümkünsüzdür. Paşinyan hakimiyyəti onları bizə təhvil verməz. Bu, erməni hakimiyyətinin nüfuzdan düşməsinə səbəb olar.

***- Dediyiniz kimi, bu günlərdə hətta Ermənistanın KTMT-dəki nümayəndəsi, baş katib Yuri Xaçaturova qarşı da cinayət işi qaldırıldı. Paşinyan bununla “Rus NATO-su”ndakı adamına da güzəşt edilmədiyini nümayiş etdirdi. Bu, nəyə işarədir? Yəni Paşinyan Rusiyaya meydan oxuyur?***

- Xaçaturovun istintaqa cəlb olunması onun təmsil olunduğu quruma qarşı saymazlıq və qudurğanlıqdır. Nəzərə alsaq ki, bu şəxs həmin quruma katibliyi həyata keçirirdi və orada Belarus və Qazaxıstan da təmsil olunurdu, Paşinyan hakimiyyətinin öz müttəfiqlərini saya salmaması göz qabağındadır. Demək istəyirlər ki, guya onlarda qanunun aliliyi, demokratiya hər şeydən üstündür. Amma öz övladlarını qonşu dövlətdən işğal etdikləri torpaqlara xidmət etməyə göndərməklə fəxr edirlər. Bu da onların əsl niyyətindən xəbər verir. Cinayətlərin kökünü ilk əvvəl Qarabağda kəsmək lazımdır - işğal etdikləri torpaqları əsl yiyələrinə qaytarmaqla.

***- Ayaz müəllim, “Qarabağ klanı”nın rəhbərliyinin cəzalandırılması Azərbaycan ərazilərinin taleyi ilə bağlı nə vəd edir? Qarabağ ermənilər Bakıya üz tuta bilərmi?***

- Klan rəhbərliyi yox, amma Qarabağda yaşayan xalqın Bakıya sığınmaq ehtimalı var. Mənim rəhbərliyim dövründə aparılan tədbirlər nəticəsində Qarabağ erməniləri tərəfindən separatçılardan yaxa qurtarmaq üçün danışıqlara başlamaq təşəbbüsü bir neçə dəfə qaldırılmışdı. Amma hər dəfə xəyanət nəticəsində bunun qarşısı alınırdı. O ki qaldı klan rəhbərliyinə, onların əli günahsız insanların qanına batıb, onları gözləyən aqibəti bilərək heç vaxt bu addımı atmazlar. Yalnız qaçıb aradan çıxmaqla canlarını qurtara bilərlər.

***- Bu günlərdə ermənipərəst mövqeyi ilə tanınan MDB İnstitutunun direktor müavini, rusiyalı hərbi ekspert Vladimir Yevseyev Ermənistanın baş naziri Nikol Paşinyanın yürütdüyü daxili və xarici siyasəti kəskin tənqid edərək bildirib ki, onu da keçmiş prezidentlərin taleyi gözləyir. Yevseyev onu da vurğulayıb ki, Qarabağ münaqişəsində Paşinyan hökuməti Rusiyadan heç bir kömək gözləməsin və məsələni dramatikləşdirməsin, çünki bu, Moskvanın problemi deyil. Ekspert haqlıdırmı?***

- Səhv etmirəmsə, Yevseyev Qarabağda rus qoşunlarının yerləşdirilməsi təklifi ilə çıxış edən təşəbbüskarlar qrupuna aiddir. Əvvəla, Qarabağ Azərbaycanın ayrılmaz hissəsi olub və daim də olacaq, buna heç kimin şübhəsi olmasın. Dünya siyasəti gözlənilməz hadisələrlə doludur. Tam əminliklə deyirəm ki, Azərbaycan dövləti bütün sürprizlərə hazırdır. Zaman-zaman istər bizdə, istərsə də Rusiyada siyasətdən başı çıxmayan, 90-cı illərin əvvəlləndə baş verən təlatümlərin nəticəsində təsadüfən siyasətdə və idarəçilikdə peyda olmuş adamların məsuliyyətsiz bəyanatları xalqlara baha başa gəldi! O “siyasətçilərin” bir hissəsi hələ də ortadadır. Təbii ki, müəyyən şərait yaransa, onların bisavadlığı və bura xalqlar arasında münasibətləri korlamaq istəyən təxribatçıları da əlavə etsək, nəticədə gözlənilməz, arzuolunmaz situasiyalara gətirib çıxara bilər. Elə rus qoşunlarının Ermənistandan çıxacağı təqdirdə Qarabağda dislokasiya etmək çağırışları da bu qəbildən olan sərsəm, amma kifayət qədər təhlükəli, kimlərinsə işinə yarayacaq çağırışlardandır. Burada təkcə bizdən söhbət getmir. Bizim dövlət heç kimə yalvarmayıb ki, torpaqlarımızı qaytarın! Daima tələb qoyulub ki, işğal olunan ərazi geri qaytarılmalıdır! Paşinyan və ya qeyrisi olsun, fərq etməz, işğal etdiyi əraziləri dərhal boşaltmalıdır! Bu, tələbdir, bizim haqqımızdır. O ki qaldı Rusiyanın bəzi mərkəzlərinin Ermənistanı tənqid etməyinə, bu, onların öz işidir, onların maraq dairəsinə aiddir. Dünən qoruyurdular, bu gün tənqid edirlər və yaxud da qoruyacaqlar, bu məsələ heç nəyi dəyişdirmir.

***- “Əgər fikirləşirlərsə ki, təhlükəsizlik zonasını verməklə Dağlıq Qarabağı saxlamaq mümkün olacaq, hərbi ekspert kimi buna ciddi şübhəm var. Bunun ardınca Qarabağ da bütünlüklə Azərbaycana veriləcək”. Bunu da rus ekspert deyib. Doğrudanmı Paşinyanın ətraf rayonları qaytarmaq niyyəti var?***

- Təəssüflər olsun ki, SSRİ dağılandan sonra bu problem qlobollaşaraq, müəyyən ərazi problemi çərçivəsindən çıxıb daha da mürəkkəbləşdi, necə deyərlər, düyünə düşdü. Siyasətdə təsadüfi peyda olmuş diletant siyasətçilərin boşboğazlığı nəticəsində müəyyən güclərin maraq dairəsinə daxil olaraq, geosiyasi oyunlar məkanına çevrildi. Lakin Azərbaycan istədiyi zaman bu torpaqları geri qaytarmaq hüququnu özündə saxlayır.1992-ci il martın 2-də biz BMT-yə bu torpaqlarımızla bir yerdə qeydiyyata düşmüşük. Hesab edirəm ki, bu, o mürəkkəb dövr üçün bizim ən böyük qələbəmiz sayıla bilər. Beynəlxalq hüquq bizə əsas verir ki, biz öz torpaqlarımıza yiyə duraq. Sadəcə, müəyyən obyektiv və subyektiv səbəblər üzündən Azərbaycan aktiv hərbi əməliyyatlara gedib öz ərazi bütövlüyünü bərpa edə bilmir. Bir faktoru qeyd etmək lazımdır ki, münbit şərait yaranmasa, Azərbaycan təcrid olunmaq təhlükəsi ilə üzləşə bilər. Burada tək Rusiya faktorunu yox, digər amilləri də, xüsusilə regionda gözü olan güc mərkəzlərini, o cümlədən islam faktorunu nəzərə almaq lazımdır. Yaddan çıxarmaq olmaz ki, biz müsəlman aləminin bir hissəsiyik və son 10 ildə müsəlman xalqlarının başına gətirilən müsibətlər göz qabağındadır. Lakin bütün bu maneələrə baxmayaraq, bizə başqa çıxış yolu qalmasa, xalq öz dövlətinin ətrafında sıx birləşib məsləhət bildiyi yolla öz müqəddəs torpaqlarını geri qaytaracaq. Mən buna əminəm və dövlətimizin də buna kifayət qədər qətiyyəti var. Xalq-dövlət birliyinin qarşısında heç bir qüvvə davam gətirə bilməz!

***- Bir neçə gün əvvəl Paşinyan və hətta həyat yoldaşı Qarabağla bağlı sülh mesajları verdilər. Amma oğul Paşinyan Qarabağa, hərbi xidmətə göndərilib. Bunun anlamı nədir?***

- Anna Paşinyanın bu bəyanatını oxumuşam. Yəqin analıq hissi onu məcbur edib ki, bu təkliflə çıxış etsin. Çünki indi onun oğlu da hərbiyə cəlb olunub, deyilənlərə görə, Qarabağda xidmət edəcək. Paşinyan öz oğlundan da siyasətdə istifadə edir, bununla demək istəyir ki, “Qarabağ erməniləri, mən sizin yanınızdayam, mənim mübarizəm cinayətkar qarabağlılardır, klan üzvləri ilə birgə”. Əslinə qalsa, bu, şou xarakterli bir gedişdir, süni vətənpərvərlikdir. Amma ana Paşinyan gözəl sözlər işlədib, mən də razıyam ki, heç bir hakimiyyət və mənfəət cavan əsgər övladlarımızın həyatından, qanından artıq deyil! Məsləhət görərdim ki, öz oğlunu od içinə göndərməkdənsə, yaxşı olardı ki, dərhal danışıq masasının arxasına keçib torpaqların geri qaytarılması prosesinə başlanılaydı. Nikol Paşinyandan soruşuram, bu, sülhün bərqərar olmasına daha yaxşı töhfə verərdi, yoxsa övladının əlinə silah verib öz həmyaşıdlarını öldürməyə göndərmək? Mənə elə gəlir ki, Anna Paşinyanın analıq hissi siyasi oyunlara qalib gəlib!

***- Ayaz müəllim, Bakıda keçirilən “Jara” musiqi festivalında erməni-yezidi kürdü qarışıqlı Zaranın iştirakına sərt təpkilər oldu. Siz bu faktı necə qarşıladınız?***

- Ümumilikdə festivalların və yaxud da digər beynəlxalq tədbirlərin, o cümlədən idman oyunlarının Bakıda keçirilməsi ölkəmizi, xüsusilə xalqımızı dünyaya tanıtdırmaq baxımından böyük əhəmiyyət daşıyır. Qeyd etdiyim kimi, bu saat dünyada islamofobiya yayılmaqdadır. Azərbaycan nadir müsəlman ölkələrdəndir ki, bu stereotipi dağıtmaq kimi ağır bir yükün altına girməyə məcburdur və bu işin öhdəsindən bacardığı qədər gəlir. Əks halda, bədxah və hiyləgər düşmənlərimiz islam faktorunu qabardaraq, bizi beynəlxalq aləmdə sıxışdırmağa çalışacaqlar. Bu isə öz növbəsində dəhşətli fəlakətlərə gətirib çıxara bilər. Kürd əsilli, əsl adı Zərifə Paşa qızı olan müğənninin bu konsertdə iştirak etməsinə gəlincə, düşünürəm ki, bu iştirak da həmin siyasətin bir elementi kimi qəbul olunmalıdır. Digər tərəfdən, bir anın içində hər şeyini itirmiş, öz doğma ocağından didərgin düşmüş, əziz ailə üzvlərini itirmiş soydaşlarımızın hissləri də başadüşüləndir. İnsaniyyətlikdən kənar vəhşiliklə üzləşmiş bu insanlar ermənilərin Bakıya gəlməsini heç cür həzm edə bilmirlər. Buna da haqları var. Hazırda ermənilərin işğalı altında olan Qarabağ, Zəngəzur, İrəvan da bizim dədə-baba torpaqlarımızdır. Erməni separatçıları daima bizim çılğınlığımızdan, qanımızın qaynar olmağından istifadə ediblər. Ona görə başa düşməliyik ki, biz nə qədər ağır olsa da, ermənilərlə qonşu yaşamağa məhkumuq və bu qonşuluğun xalqımız üçün əbədi olaraq təhlükəsizlik baxımından maksimum dərəcəyə çatdırılması mexanizmi hazırlanmalıdır.

***- Prezident Putinin mətbuat katibi Dmitri Peskov və Lavrovun mətbuat katibi Mariya Zaxarovanın da bu arada Bakıda olması, sizcə, hansı anlamı verirdi?***

- Peskov və xanımının, Zaxarovanın Bakıya gəlməsi, Bakıya heyran olmaları, ümumilikdə vətənimiz və xalqımız haqqında xoş təəssüratların yaranması yaxın gələcəkdə çox faydalı ola bilər.



**“İnsaniyyətlikdən kənar vəhşiliklə üzləşmiş bu insanlar ermənilərin Bakıya gəlməsini heç cür həzm edə bilmirlər, buna da haqları var”**

❑ Elşad PAŞASOY,
“Yeni Müsavat”



# Otuz rəqəminin sirri

Zamin HACI
zaminhaci@gmail.com

“Şamamam olmadı, tağım olmadı,
Bostanım olmadı, bağım olmadı,
Yıxılıb ölərdim, ağlım olmadı,
Vurdum gəldim çıxdım otuz yaşıma"
*(Eldar Baxış)*

**Avtobusda nəşə çəkən sürücüyə sataşmağımızın, onun nəşəsini pozub polisə təhvil verməyimizin axırı elə avtobusda gediş haqqının qalxması ilə yekunlaşmalıydı. Sakit oturmaq lazımdır. Nə üçün biz siyasətə qarışırıq? O cümlədən metroda qiymətin qalxması Tarif Şurasının izahatı ilə qətiyyən bağlı deyildir. Guya işıq sönəndə bir də tuneldə qalmayaq deyə generator alacaqlar, metronun müdiri həyətində yeraltı hovuz düzəldəcək, nə bilim, Azıx mağarasının bir ucu Güney Azərbaycana çıxır... Bunlar hamısı boş-boş söhbətlər, nəzəriyyələrdir. Metroya keçən ay bir qız mini paltarda minmişdi, yadınıza gəlirmi? Bax, metroda qiyməti qaldıran belə şeylərdir. Dünyanın hər yerində striptiz-klublar bahalı yerlərdir.**

Eyni zamanda iranlı alimlərin, həmçinin bizim AMEA-dan Əkrəm Həsənovun araşdırmalarına görə, zənənlər qısa tuman geysə, başı açıq gəzsə, o yerdə fəlakət qopmalıdır, zəlzələ, tufan, cəhənnəm, tornado, fırtına, deputat fırıldağı, vulkan, sel, yumurtanın bahalaşması, meşə yanğınları, metroda qiymətin qalxması kimi təbii fəlakətlər baş verməlidir *(İlahi, sən bunlardan Ərmənistan tərəflərdə bol elə, amin! Paşinyanın oğlu da əsgərlik zamanı gələn Novruzda Cıdır düzündən yıxılıb İsa bulağında boğulsun, gözünə isə bizsiz qurumuş xarı-bülbül çiçəyinin çöpü girsin, inşallah, ya rəbbüləmin!)* Çünki yuxarıdakı idarədən beləncik geyim-kecim işlərinə ciddi nəzarət vardır. Sən baldırını bircə millimetr açıq qoyub küçəyə çıxırsan, heç xəbərin yoxdur ki, o yanda mələklər Tarif Şurasında dərhal yığışıb avtobus biletinin neçə qəpik qalxmasının zəruriliyini müzakirə edirlər.

Doğrudur, metroda o fəlakət anonsu baş verərkən bir xala milli qeyrətimizi əsas tutaraq, mentalitet tumanını başına keçirdərək o qıza hücuma keçmiş, həyasızı yerində oturtmuşdu. Ancaq daha olan olmuşdu, yuxarıya informasiya getmişdi. İnsan gərək heç vaxt siyasətə qarışmasın, başını aşağı salıb yaşasın, bundan da pis ola bilər. Sözgəlişi, başını aşağı salıb yaşayanda adam qiymətin yuxarı qalxmağını görmür, bu da xalqımız tərəfindən müdrik qərardır.

Dövlətin qiymət qalxmasına verdiyi izahda “2007-ci ildən bəri gediş haqqı dəyişməmişdi” cümləsi də maraqlı, məzmunlu, dolğun, aydın, gərəkli, müdrik, ağıllı, uzaqgörən, tüpdağıdan, alaypozan, çaydaçapan cümlədir. Şair bu məqamda yaxşı demişdir:

**“Atın-tutun bu balanı,**
**Qəndə qatın bu balanı.**
**Atası evə gələndə**
**Qabağa tutun bu balanı.**

***

**Dağdakı atlar,**
**Quyruğun qatlar,**
**Göyçək arvadlar**
**Bu balama qurban".**

Şair burada qeyd etmək istəyir ki, əgər ötən dövrdə ölkəmizdə bu qədər dəyişiklik olubsa, nə üçün avtobusun qiyməti də qalxmasın? Təsəvvür edin, bizim iqtisadiyyat o dərəcədə qabağa getmişdi ki, Müdafiə Nazirliyi hətta deputatı saxlayırmış! Hər ay deputata 100 min manata yaxın pul gedirmiş. Hansı büdcədən? Yəqin işğaldan azad elədiyimiz ərazilərdə düşməndən toplanan vəsaitdən, qənimətdən. Rusca desək, trofeydən *(deputat özü ruskoyazıçnıdır, belə yazaq başa düşsün).* Çünki hər deputat bir ordudur. Ancaq sonra nazir dəyişilib, pullar kəsilibdir. Nəticədə camaat bir-birini məhkəməyə verir, səs yazısı yayır, milli birliyimizə, dünya azərbaycanlılarının həmrəyliyinə xələl gəlir, ermənilər sevinir.

Deputatın borclu olduğu şəxsə “Mehmandan pul alıb, sənə verəcəyəm” deməsi də lentə düşübdür, biz güman edirik, bu gizli adam hazırda həbsdə olan jurnalist-blogger Mehman Hüseynovdur. Böyük ehtimalla Mehman Hüseynovun villa tikintisi, deputat biznesində əli varmış. Gəlin, onu azad edək, deputatın pulunu ödəsin, avtobusların qiyməti də bir daha qalxmasın. Çünki 30 qəpik nəsə yuvarlaq rəqəmə oxşamır.



# İrəvan ABŞ-ın əli ilə Kremlə kompromat savaşı açır - Paşinyan tarana gedir?

## Köçəryanı Amerikanın həbs etdirdiyi barədə sensasion iddia ortaya çıxıb; eks-prezidentin qandallanmasının ilginc motivi və pərdəarxası; Xocalı canisi zindanda öldürülə bilər...

**Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın həbsi işğalçı ölkədə 8 may hakimiyyət çevrilişindən sonra başlayan qalmaqalı həbslərin zirvəsi sayıla bilər. Bir çox gözləntilərin əksinə olaraq, Köçəryanın toxunulmazlığı qısa zamanda ləğv edildi və o, Nikol Paşinyanın baş nazirliyinin 80-cı günündə zindana salındı, 1 mart 2008-ci il hadisəsi ilə bağlı barəsində iki aylıq həb-qətimkan tədbiri seçildi.**

Maraqlıdır ki, hələlik Rusiyanın ekspert çevrəsi xaric, rəsmi səviyyədə olaya reaksiya gəlməyib. Halbuki Köçəryanın qandallanması Paşinyan iqtidarının müəyyən mənada Rusiyaya “əlcək atması” anlamına gəlir. Ona görə ki, eks-prezident Rusiyaya çoxsaylı tellərlə bağlı olub, hakimiyyətdə olduğu 10 ildə Ermənistanı can-başla Kremlin vassalına çevirib, Moskvaya sadiq qalıb. Ən əsası, Köçəryan özündə Rusiyanın Ermənistan siyasəti ilə bağlı bir çox sirləri daşıyır. Onu prezidentlikdən öncə Rusiyaya bağlayan başqa tellər də var.

*****

**Rusiyalı tanınmış analitik və tarixçi Oleq Kuznetsov** hesab edir ki, R.Köçəryan Rusiya-Ermənistan münasibətlərinin müxtəlif sahələri üzrə bir sıra gizli məlumatın daşıyıcısıdır. Buna görə də, onun fikrincə, hər şey sabiq prezidentin yerli istintaqa və onunla əməkdaşlıq edən ABŞ-ın məxfi xidmətinə hansı məlumat verəcəyindən asılıdır (axar.az). Analitik əmindir ki, Köçəryan ABŞ-a və Ermənistanın yeni hakimiyyət orqanlarına maraqlı olan məsələlərin bütün spektrində sorğu-sual olunacaq.

**Ekspert həmin məsələlərin mahiyyətinə işıq salmağa çalışıb:** “Böyük əminliklə deyə bilərəm ki, Xüsusi İstintaq Xidmətini maraqlandıracaq əsas suallardan biri budur: Ermənistan dövlət büdcəsinin pulları hansı yollarla Rusiyadakı erməni əsilli oliqarxların şirkət hesablarına köçürülüb. Köçəryan da onlardan biridir. Bu oliqarxlar 6-7 ay Rusiyada yaşayandan sonra Ermənistana geri qayıdır, onların qazancları isə Rusiya dövlət büdcəsinə əlavə olunur. Rusiya hakimiyyəti, xüsusilə dünya iqtisadi böhranı şəraitində və beynəlxalq sanksiyaların tətbiq olunduğu bir dönəmdə belə investisiyalara çox müsbət baxırdı. Eyni zamanda Ermənistan əhalisi yoxsulluq içində idi və Moskvada yaşayan erməni oliqarxları bəsləyirdi. Aydındır ki, Kremlin bu məsələ ilə bağlı öz mövqeyini aydın ifadə etməsi çətin olacaq. Beləliklə, Ermənistanda korrupsiyaya qarşı mübarizə erməni milyarderlərlə birgə işləyən rus nazir və qubernatorlarının adlarının açıqlanması ilə Rusiyaya ciddi zərbə ola bilər”.

Oleq Kuznetsov “Qarabağ klanı”nln 20 illik hakimiyyəti dönəmində (1998-2018) Ermənistanda siyasi motivlərlə törədilmiş digər qalmaqallı cinayətlərin, terror olaylarının izinin də Moskva ilə əlaqələndirilməsini istisna eləmir. Bu sırada 1999-cu ilin oktyabrında Ermənistan parlamentinin güllələnan edilməsi də var.

“Yeni Müavat” xatırladır ki, həmin terror hücumu zamanı parlamentin o zamankı spikeri Karen Dəmirçyan və baş nazir Vazgen Sərkisyan da daxil, 8 nəfər öldürülmüşdü. Dəmirçyan və Sərkisyan kökəncə qarabağlı deyildilər və yüksək nüfuza malik siyasətçilər kimi o zaman prezident postunu təzə-təzə ələ keçirmiş Köçəryanın ciddi siyasi rəqibləri sayılırdılar.

Cinayətin üstü hələ də açılmayıb. Yəni təşkilatçının kimliyi qaranlıq qalır. Lakin terrorun izinin Rusiyaya apardığı haqda o vaxtdan ciddi şübhələr var. Daha bir səbəbdən: hadisədən az sonra - dekabr ayında ATƏT-in İstanbul sammitində ABŞ-ın uzun müddətli təşəbbüskarlığının yekunu olaraq Dağlıq Qarabağla bağlı Azərbaycan və Ermənistan arasında mühüm bir sənədi imzalanması gözlənilirdi. Bu isə Rusiyanın maraqlarına cavab vermirdi.

Bundan əlavə, bəllidir ki, R.Köçəryan Xocalı soyqırımım əsas təşkilatçılarındandır. O zaman onun Xankəndində yerləşən və soyqırımda iştirak eləmiş 366-cı Rusiya alayının rəhbərliyi ilə sıx əlaqələri də məlumdur. Ancaq bu epizod üzrə Köçəryan çətin ki, sorğu-sula çəkilsin. Çünki bu, işğalçı ölkənin özünü ifşası demək olardı. Bununla belə, Kremli şantaj eləmək naminə, həmin faktdan necə deyərlər, “daxili istifadə” üçün - Kremlə qarşı şantaj qismində istifadə olunması istisna deyil.

*****

“Levon Ter-Petrosyan dəfələrlə eyham vurub ki, baş verənlərin bir ucu Moskvaya gedib çıxır. O vaxt Rusiya prezidenti Boris Yeltsin idi. Vladimir Putin isə FSB-nin direktoru idi. Ermənistanın Xüsusi İstintaq Xidməti bu cinayətin araşdırılması zamanı ”Kremlin izi"nə düşə bilsə, böyük uğur qazanacaq. Və əgər Köçəryan törətdiklərini məhkəmədə Putinin şəxsi tapşırığı ilə reallaşdırdığını etiraf edərsə, bu, Rusiya üçün çox böyük təhqir olacaq" - Kuznetsov deyib.

**Bəs Rusiya Köçəryanı hansısa şəkildə xilas etməyə cəhd edəcəkmi?**

“Ümumiyyətlə, bu gün Rusiyanın siyasi rəhbərliyi üçün Köçəryanın saxlanıldığı yerdə ölməsi ən yaxşı variantdır. Amma içimdən bir səs mənə deyir ki, Ermənistanda akkreditə olunmuş 1500 amerikalı diplomat, Köçəryanın həbsxana yoldaşları və oranın mühafizəçiləri ondan Rusiya haqda istədikləri məlumatları almayınca onu nə yatmağa, nə də özünü asmağa qoyacaqlar”.

*****

Belə çıxır ki, Paşinyan iqtidarı faktiki şəkildə Rusiyaya qarşı kompromat savaşına çıxıb - özü də ABŞ-ın və onun məxfi xidmətinin əli və köməyi ilə. Ola bilsin, yeni hakimiyyət bununla Rusiya qarşısında ən azından, daha dayanıqlı mövqe qazanmaq istəyir. Yaxud qarşılığında Rusiyadan hansısa siyasi, iqtisadi, hətta təhlükəsizlik güzəşti qoparmağa ümid edir. Ancaq bu, olduqca təhlükəli plandır, faktiki, tarana getmək kimi şeydir - planın arxasında ABŞ dursa belə. Niyə?

Birinci ona görə ki, Rusiya, Putin belə zarafatları, şantaj dilini sevmir. İkincisi, ABŞ-dan fərqli olaraq, Rusiya Ermənistanın öz içindədir. Faktiki şəkildə işğalçı ölkənin şəriksiz təhlükəsizlik qarantıdır, onun Türkiyə və İranla sərhədlərini belə, rus hərbçiləri qoruyur. Nəhayət, Paşinyan hökumətinə təsir eləmək üçün Kremlin əlində güclü “Qarabağ kartı” var...

❑ **“Yeni Müsavat”ın analitik xidməti**

**"Qarabağı qaytara bilməməyimizin əsas səbəbi problemin həllindən cəmiyyətin ildən-ilə daha da uzaqlaşması faktı göstərilə bilər. Vətən torpağının xilası bütövlükdə cəmiyyətin bütün resurslarının məqsədyönlü səfərbər edilməsi ilə mümkün ola bilər". Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa bu fikirləri "Yeni Müsavat"a işğal altındakı ərazilərimizi illərdir qaytara bilməməyimizin səbəblərindən danışarkən söylədi.**



# Qarabağı niyə azad edə bilmirik - mürəkkəb məsələ barədə bəsit sual

## Siyasətçilər bizdən asılı olan və olmayan səbəblərdən danışdılar, çıxış yolu dedilər




Qeyd edək ki, Azərbaycan həm əhali sayı, həm ordusu, həm iqtisadi göstəriciləri ilə işğalçı Ermənistandan qat-qat üstündür. Üstəlik, diplomatik sahədə, diasporumuzun inkişafında da irəliləyişlər var. Ölkə əhalisi də bir nəfər kimi silaha sarılmağa hazırdır. Həmçinin ölkəmizin bölgədə mühüm rola malik olması onun iri dövlətlərlə, həmçinin Rusiya ilə münasibətlərinə müsbət təsir göstərir. "Qarabağın açarı" sayılan Rusiyanın rəhbərliyi Azərbaycanın rolundan bəhs etməklə yanaşı, dəfələrlə bəyan edib ki, ölkəmizlə əlaqələrin inkişafında maraqlıdır. Elə isə torpaqlarımızı geri qaytara bilməməyimizin səbəbləri nədir?

**F.Mustafa burada digər amillərin neqativ rolundan bəhs etdi:** "Faktiki olaraq Qarabağ məsələsi ilə hakimiyyət elitasındakı məhdud sayda məmurlar məşğul olduğuna görə cəmiyyətin alt qatlarının resurs və düşüncə baxımından prosesə töhfə vermək imkanı demək olar ki, yoxdur. Yalnız ordu, iqtisadiyyat və ya Rusiya ilə yaxşı münasibətlər yetərli deyil, xalqın iradəsi əsas amil olaraq önə çəkilməlidir. Hətta Milli Məclisdə Qarabağ məsələsinin hər dəfə ayrıca bir iclasda müzakirə olunmasına belə isti yanaşılmır. Halbuki bizim situasiyada olan dövlətlərdə hər kəs anlayır ki, "Ağıl ağıldan üstündür" prinsipindən uzaqlaşmaq olmaz. Cəmiyyətin alt qatlarından elə ciddi ideyalar doğa bilər ki, illərdir hansısa məmurun ağlına gələ bilməz. Yeni Vətən torpağının xilasının məsuliyyətini bütün cəmiyyətin üzərinə yükləmədikcə və bu cəmiyyətin düşünən hissəsinin iştirakçılığı təmin olunmadıqca bu məsələdə mövcud durğunluq davam edəcəkdir".

**BAXCP sədrinin müavini, politoloq Elçin Mirzəbəyli isə "Yeni Müsavat"a bildirdi ki, çox geniş və əhatəli mövzudur. Ekspertin fikrincə, Qarabağı geri qaytara bilməməyimizin səbəbləri o qədər çoxdur ki, hər birinin haqqında saatlarla danışmaq olar:** "Əsas səbəblərə gəldikdə isə burada bir neçə məqama diqqət yetirmək lazımdır. Zənnimcə, səbəblərin öndə gələni Rusiya amilidir. Moskva münaqişənin ədalətli həllini, yəni Azərbaycan torpaqlarının işğaldan azad edilməsini və Dağlıq Qarabağ üzərində suveren hüquqlarımızın bərpa olunmasını, yeni problemin ədalətli həllini istəmir. Bu məqam hazırda Rusiyanın Cənubi Qafqaz üzrə dövlət siyasətinin əsasını təşkil edir və bu ölkə ilə bütün digər sahələrdə nəzərə çarpan əməkdaşlıq meylləri əsasən geosiyasi reallıqlardan, bəzi hallarda isə fərdi təşəbbüslərdən qaynaqlanır".

**E.Mirzəbəyli qeyd etdi ki, son zamanlar Rusiyanın Azərbaycana qarşı siyasətində iki qabarıq meyl nəzərə çarpmaqdadır:** "Bunlardan biri daha çox təxribat və təhdid xarakterli davranışların yer aldığı meyllər, digəri isə ilk baxışda cazibədar görünən, alt qatında isə hansı hədəflərin yatdığı aydın olmayan addımlardır. Əgər baş verənlər beynəlxalq münasibətlərdə istifadə olunan klassik metodlardan - "zopa və kökə" siyasətindən qaynaqlanırsa, o zaman prosesin əsəblər tarıma çəkilənədək davam edə biləcəyi ehtimalı var. Yox, əgər yanaşmanın təməlində iki ayrı-ayrı xəttin mövqeyi dayanırsa, o zaman bu, Moskvanın Cənubi Qafqaz siyasətində ziddiyyətlərin açıq şəkildə ortaya çıxmasında maraqlı olan qüvvələrin mövcudluğu və təbii ki, mərkəzdənqaçma meyllərinin ilkin təzahürlərinin yarandığı ehtimalını yaradır. Bütün bunların fövqündə Rusiyanın tələsdiyi də nəzərə çarpır. Moskva Avrasiya məkanında özünün dominantlığı altında həyata keçirmək istədiyi inteqrasiya prosesini başa çatdırmaq istəyir. Amma bu prosesi bərabərhüquqlu və ədalətli şəkildə gerçəkləşdirmək marağında deyil. Ənənəvi siyasətinə uyğun olaraq kimdən daha çox almaq mümkündürsə ondan daha çox almaq və əvəzində isə ilğım perspektivlər vəd etməklə kifayətlənmək istəyir. Moskva postsovet ölkələrini "əlində olanı da itirə bilərsən" hikkəsi ilə əlində olmayanın itkisi ilə barışdırmağa çalışır. Daha sadə ifadə edim: bir soyğunçu hər hansı bir insanın əlində nə varsa alır, öz evini özünə kirayə verir, qışın soyuğunda qazını, işığını kəsir, sonra isə masanın üzərinə bir şüşə araq qoyub deyir: "Bunu da içək dostluğumuzun şərəfinə, həm də isinək..." Mənim gördüyüm mənzərə budur".

**Politoloqun sözlərinə görə, növbəti amil Qarabağ probleminin beynəlxalq münaqişə statusunda olması və münaqişənin tənzimlənməsində iştirak edən güclərin regionda uzlaşdırılması mümkün olmayan maraqlarıdır:** "Bu sıraya erməni diasporu və lobbisini, regiondakı bəzi dövlətlərin Rusiyanın maraq dairəsi ilə hesablaşmasını və hətta bu reallığın qorunmasına dəstək verməsini, bəzi qrupların korporativ maraqlarını da əlavə etmək olar. Azərbaycan ordusu şübhəsiz ki, güclüdür. İqtisadi və hərbi potensialımızı da Ermənistanla müqayisə etmək mümkün deyil. Amma ortalıqda Azərbaycan dövlətinin və xalqının təhlükəsizliyi, problemin həllinə bizim üçün həyati əhəmiyyət kəsb etməyən itkilərlə nail olunması məsələsi dayanır. İndiki məqamda ən önəmli məsələ ölkə iqtisadiyyatının diversifikasiyasını sürətləndirmək, ölkə həyatının bu və ya digər sahəsinə müdaxilə ehtimalı yaradan bütün boşluqları doldurmaq, İstiqlalımız və bayrağımız ətrafında birliyimizi, həmrəyliyimizi qorumaq lazımdır. Hər kəs Azərbaycan xalqının və dövlətinin müqavimət gücünü daha qabarıq şəkildə görməlidir".

❑ **Cavid TURAN, "Yeni Müsavat"**

# Rusiyada keçirilən tank yarışlarında məqsəd

## Ekspert: "Burada idmandan çox, siyasi anlam var..."



**Rusiyada "Beynəlxalq Ordu Oyunları - 2018" yarışları keçirilir. Bu yarış çərçivəsində keçiriləcək "Tank biatlonu" müsabiqəsində iştirak etmək üçün Azərbaycan tankçıları iyulun 20-də Moskva şəhərinə gedib. Rusiyanın Alabino hərbi poliqonunda üç mərhələdə keçiriləcək "Tank biatlonu" müsabiqəsində 31 ölkədən komanda iştirak edir.**

"Beynəlxalq Ordu Oyunları - 2018" yarışları çərçivəsində iyulun 28-dən avqustun 11-dək Azərbaycan, Belarus, Qazaxıstan, Çin, İran və Rusiya ərazisində ümumilikdə 28 müsabiqə təşkil olunacaq. Azərbaycan hərbçiləri 5 müsabiqədə iştirak edəcək. Hərbçilərimiz ölkəmizdə keçiriləcək "Dəniz kuboku" ilə yanaşı Rusiyada "Tank biatlonu" və "Səhra mətbəxi", Qazaxıstanda "Artilleriya atəşinin ustaları" və Belarusda "Snayper həddi" müsabiqələrinə qatılmalıdır. Bundan əlavə, hərbçilərimiz İranda keçiriləcək "Dərinlik" və Rusiyada təşkil olunacaq "Qoşun kəşfiyyatı əlaçıları" müsabiqələrində ölkəmizi müşahidəçi qismində təmsil edəcəklər.

Azərbaycan komandası "Tank biatlonu - 2018" beynəlxalq hərbi oyunları müsabiqəsinin üçüncü yürüşündə qalib gəlib. Üçüncü yürüşdə tankodroma Azərbaycan, CAR, Zimbabve və Hindistan yığmaları çıxıblar. Azərbaycan tankının ekipajı qalib gəlib. Sonrakı yerləri müvafiq olaraq, Hindistan, Zimbabve və CAR tankçıları tutublar. Çindən savayı yarışın bütün iştirakçıları Rusiya istehsalı olan T-72B3 tanklarında çıxış edirlər. Çin tankçıları özlərinin "Tip-96" maşınlarında yarışırlar.

**"Yeni Müsavat"a danışan hərbi ekspert Üzeyir Cəfərov bildirdi ki, əvvəllər bu cür yarışlara o qədər də maraq olmayıb:** "Son zamanlar isə Rusiya öz ətrafında baş verən hadisələrin fonunda çalışır ki, belə yarışlar təşkil etsin. Bu yarışlar da bir növ ölkələrin bir-birləri ilə əlaqələrinin genişlənməsi məqsədini güdür. Yarışlar ümumi baxanda ortaya hansısa nəticə qoymur. Sadəcə olaraq, ölkələr arasında dostluq əlaqələrinin, hərbi əməkdaşlığın güclənməsi məqsədini güdür. Azərbaycan da son illər bu cür tədbirlərdə iştirak edir. Həm də bu yarışların bir özəl mənası var ki, ölkələrin silahlı qüvvələri təmsil etdikləri dövlətlərin mədəniyyətini, iqtisadiyyatını, siyasətini təqdim edir. Hər il bu guşələrdə bizim nümayəndələr Azərbaycan incilərini nümayiş etdirirlər. Bildiyim qədər Müdafiə Nazirliyinin məsul zabitləri sərgidən bir müddət öncə pavilyonları təşkil edirlər. Keçən il Rusiyanın müdafiə naziri Azərbaycanın təşkil etdiyi pavilyona çox böyük maraq göstərmişdi. Müdafiə Nazirliyi bəyan etməsə də, məndə olan məlumata görə, Şoyqu eksponatların Azərbaycanın milli dəyərlərindən biri olan qılınca çox böyük maraq göstərib. Bunu mənə Rusiya Müdafiə Nazirliyindəki tələbə yoldaşlarım bildiriblər ki, Şoyqunun diqqətini Azərbaycanın pavilyonu həmişə cəlb edib və hər dəfə özü üçün xatirə kimi nə isə götürüb. Tankçılarımız da orada iştirak edirlər. Düşünürəm ki, bu oyunlar daha çox siyasi anlam daşıyır. Yəni bu tədbirin mənası daha çox siyasi məsələ ilə bağlıdır".

**Ekspert bildirib ki, ilbəil yarışa qoşulan ölkələrin sayı artır:** "Burada güc göstərməkdən danışmırıq. Azərbaycan kimə güc göstərəcək? Bəzən ermənilər də iştirak edir. Gürcüstanda "Layiqli tərəfdaş" adlı NATO-nun təlimləri başlayır. Əvvəllər ermənilər bu cür tədbirlərdə iştirak etmirdilər. Ancaq bu dəfə iştirak edirlər. Doğrudur, 4 zabitlə qatılırlar. Ancaq istənilən halda bu da bir siyasi anlam daşıyır. Əslində Ermənistan heç zaman Azərbaycana layiqli tərəfdaş ola bilməz. Çünki Ermənistan işğalçılıq siyasəti ilə məşğuldur. Ancaq bu da bir tədbirdir ki, NATO tərəfindən təşkil edilib və Azərbaycan da orada iştirak edəcək. Ancaq biz bilirik ki, Ermənistan heç zaman bizə tərəfdaş ola bilməz. Nə qədər ki, ərazi bütövlüyümüz bərpa olunmayıb və Ermənistanın işğalçı qüvvələri ərazilərimizi tərk etməyiblər, bu, belə də qalacaq. Moskvada isə Rusiya sözsüz ki, ev sahibi kimi üstünlüklərə malikdir. Həm poliqonu yaxşı tanıyırlar, həm də bəzi ölkələr öz texnikalarını gətirməyib, arsenallarında olan Rusiya tankları ilə çıxış edirlər. Ümumilikdə üstünlük baxımından Rusiya tərəfi öndədir. Bütövlükdə isə tədbir siyasi anlamdadır".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 163 (7052) 1 avqust 2018

**İllərdir ki, Milli Məclisin deputatı, Əfv Komissiyasının üzvü Elmira Axundova və oğlu "Amalya" qadın salonunun şəriki Həbib Axundovun adı mətbuatın gündəmindən düşmür. Dünən mediada Elmira Axundova ilə sahibkar Fərman Məmmədov arasında olan telefon söhbətinin sensasiyalı audioyazısı yayılıb. Audioyazıda söhbət deputatın Fərman Məmmədovdan borc aldığı böyük məbləğdə puldan gedir...**

*(əvvəli ötən sayımızda)*




# Elmira Axundovanın adı qarışan böyük dələduzluq işinin ilginc detalları

## Deputatın və oğlunun dəyərli 10 milyon manatlarla ölçülən varidatının siyahısı; **Fərman Məmmədov:** "Evindəki məclisdə Elmira Axundova söylədi ki, oğlum tenderlərdə iştirak edir; onun dövlət orqanları ilə katric alverindən, ofis ləvazımatı biznesindən danışırdı"

### "Təkcə Elnur İbrahimovdan şikayətçi deyiləm"

**Elmira Axundovanın, oğlu Həbib Axundovun adını çəkdikləri Fərman Məmmədov özü də "Yeni Müsavat"a danışıb. Deyib ki, hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində Elnur İbrahimova qarşı cinayət işi üzrə məhkəmə prosesi keçirilir:** "Mən təkcə Elnur İbrahimovdan şikayətçi deyiləm. Şikayətim həm də Həbib Axundovdandır. Bunu dəfələrlə istintaqa da bildirmişəm. İstintaq araşdırmayıb. Yalnız Elnur İbrahimovun üzərinə yükləyib işlərini bitmiş hesab ediblər. İşi yarımçıq məhkəməyə göndəriblər. Məndən Həbib Axundov 575 min manat alıb. Həmin pulun 140 min manatını Həbibin xahişi ilə Elnura vermişəm. İstintaq zamanı da Həbib Axundov bunu təsdiq edib. İşin içində ifadəsi var və Həbib Axundov deyir ki, mən 140 minə zamin durmuram.

### "Pul almamısansa, niyə hissə-hissə qaytarmaq haqda söhbət aparırsan?"

Yəni qalan məbləğə zamin olmasını təsdiqləyir. Bu gün Elmira Axundova, oğlu Həbib Axundov nə istəyirlər danışırlar, məsələnin mahiyyətindən yayınmaq üçün min bir dəxlisiz məsələlərə toxunurlar. Mənim əfqan döyüşçülərinə qarşı qanunsuzluq etdiyimi deyirlər. Qanunsuzluq etməmişəm. Etmişəmsə, buyursunlar, versinlər məhkəməyə. Həbib Axundov nə vaxtdan dövlət orqanı olub şikayət qəbul edir? Elmira Axundovadan soruşuram. Mənə borcu yox idisə, niyə mənimlə borcu qaytarmaq haqda razılığa gəlirdi? Deyir Fərman Məmmədov zəng edirdi, bezmişdim, 250 min verdim. Belə çıxır ki, Elmira Axundovaya ardıcıl zəng edən olsa, aparıb ona da 250 min manat verəcək? Bu qədər məntiqsizlik olar? Desin görək, oğlu Həbib Axundov mənimlə borc haqda uzun-uzadı danışıb hissə-hissə qaytarmaq üçün niyə vaxt istəyirdi? Məndən borc pul almamısansa, niyə hissə-hissə qaytarmaq haqda söhbət aparırsan? Həbib Axundovdan məndən aldığı pulları tələb edirəm. Anası Elmira Axundova da çıxış edir və deyir: "Fərman Məmmədov mənə bata bilməz!" Düz deyir, mən heç vaxt belə bir fikirdə olmamışam, heç kimlə də ədavət, düşmənçilik aparmıram. Sadəcə, pulumu tələb edirəm. Vəssalam. Mən niyə kiməsə batmalıyam?

### "Həbib Axundov özü istintaqda deyir ki, 450 min manatı qaytarırlar"

Əlimdə telefon danışıqları var. Həbib Axundov özü istintaqda deyir ki, 450 min manatı qaytarırlar. Pulu məndən Elnur İbrahimov alıbsa, bunun sənə, sənin anan Elmira Axundovaya adiyyəti yoxdursa, niyə 450 min manatın mənə qaytarılması haqda söhbətə çağırırsız? Niyə Şahin Məhərrəmova 3 min 500 qaytarırsan? Elmira Axundova, məni evinə dəvət eləmisən və 250 min manat borcumdan qaytarmısan axı?! Oğlun Həbib Axundov Ziya Vəliyevə də deyib ki, pulunu qaytaracaq və Ziya Vəliyev də bu gün geri çəkilib. Fərman Məmmədovu yalan danışmaqda ittiham etməklə deyil! Ortada səs yazılarınız, ibtidai istintaqa verdiyiniz ifadələriniz var axı. Bunlara nə deyəcəksiniz?

> **"Deputat deyirdi ki, hər il Səfər Əbiyevin elan etdiyi tenderlərdən 60-100 min manat pul götürür, bu pullarla borcumu verəcəklər"**

### "Elmira Axundova dedi ki, "biznes ruxnul"

Məndən Həbib Axundovun aldığı 250 min manat pulu Elmira Axundova qaytarmazdan əvvəl aramızda çox söhbətlər olub. Elmira Axundova məndən 3 ay vaxt istəmişdi. Demişdi ki, 3 aya 300 min manat pul qaytarır. Qalan 150 min manatı da hissə-hissə ödəyəcəklər. Deyirdi ki, hər il Səfər Əbiyevin elan etdiyi tenderlərdən 60-100 min manat pul götürürük. Götürəcəkləri tenderdən əldə etdikləri pullarla borcumu verəcəklərini deyirdi. Səs yazılarını istintaqa təqdim etmişəm. Elmira Axundova bu gün açıqlama verib deyir ki, Fərman Məmmədov və mənim oğlum Həbib Axundov Elnur İbrahimova faizə pul veriblər. Elmira Axundova, yumşaq desəm, doğru demir. Evindəki məclisdə Elmira Axundova dedi ki, oğlum tenderlərdə iştirak edir; onun dövlət orqanları ilə katric alverindən, ofis ləvazımatı biznesindən danışırdı. Bundan sonra da Həbib Axundov məndən biznesini böyütmək üçün pul alıb və ilk vaxtlar qaytarıb. Sonradan isə pulları vermədilər. Elmira Axundova dedi ki, "biznes ruxnul". Axı biznes çökübsə, məntiqlə Həbib Axundov, onun anası Elmira Axundova da biz zərərçəkənlər kimi müflis olmalıdırlar. Onlar isə qəfil şəkildə varlanıblar.

Onunla aramızdakı səs yazısının stenoqramını da istintaqa, məhkəməyə təqdim etmişəm. Redaksiyanıza da təqdim edirəm. Hər dəfə pulumu istəmişəm, hər dəfə də Elmira Axundova məni sakitləşdirib, deyib ki, pulu qaytaracaqlar".

### Elmira Axundova: "... Bu gün, sabah yaxşı pullar olacaq"

**Fərman Məmmədovla Elmira Axundovanın telefon danışığının stenoqramını da təqdim edirik. Elmira Axundova Fərman Məmmədova deyir:**

"Pul barəsində deyim ki, pul olacaq. Tikintimiz gedir. Mehman mənə deyir ki, bu gün, sabah yaxşı pullar olacaq, Həbibdə də pul olacaq, o da öz ərazisini satır. İndi ilin əvvəlidir, qar yağır. Mən də hər gün Mehmandan soruşuram, biz səndən də çox narahatıq ki, sənə o pulları qaytarmaq lazımdır, heç olmasa hələlik böyük hissəsini qaytarmaq lazımdır. Yəni az qalıb, pul yaxınlarda olacaq, biz də oturub gözləyirik. Müdafiə Nazirliyində naziri ( Səfər Əbiyev) dəyişdilər, işlər çətinləşdi. Yoxsa hər il mən oradan 60 min, 100 min pul götürürdüm (tenderlərlə). Noyabrdan pullar bağlanıb. Sənə belə xırda-para 5-10 min verərdim, amma hələ də düz alınmır. Heç olmasa sənə 100-150 min gərək ən azından hələlik verim. Narahat olma, 2-3 ay gözlə, pul olacaq. Biz bu işin üzərində çalışırıq, pul olmalıdır bizdə".

Fərman Məmmədov da öz növbəsində deyir ki, deputat Elmira Axundova ilə qeyd olunan telefon danışığı 2013-cü ilin dekabrında olub. Amma ondan sonra da borcu qaytarmayıblar. Əvəzində mal-mülklərinin siyahısını artırıblar. Axundovlar heç zaman olmadığı kimi varlanıb, dəbdəbə içində yaşamağa başlayıblar.

### Elmira Axundova, doğrudan "biznes ruxnul"?

Fərman Məmmədov deyir ki, rəsmi sorğular əsasında alınan məlumatları da istintaqa, məhkəməyə təqdim edib. Redaksiyamıza da təqdim olunan sənədlərdən belə aydın olur ki, "biznes ruxnul" deyən deputatın real maliyyə durumu bir başqadır.

### Elmira Axundovanın və oğlunun mal-mülklərinin siyahısını təqdim edirik:

**1.** "Tayota Prado" minik avtomobili, ili 2015, nömrə nişanı Az 90 HH 111, alış tarixi 28.07.2015.

### Sahibi: Axundova Elmira Hüseyn qızı.

**2.** "AUDI Q 7" minik avtomobili, ili 2012, nişanı, Az 10 LS 050 30.05.2013. Sahibi Axundova Elmira Hüseyn qızı.

### Bundan əlavə, Elmira Axundovanın adına:

**1.** Bakı şəhəri, Xəzər rayonu,Şüvəlan qəsəbəsi, 30/4181 saylı bağ evi.

**2.** Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd İbn Hinduşah Naxçıvani küçəsi 9 saylı ünvanda yerləşən 38 saylı qaraj;

**3.** Bakı şəhəri, Nəsimi rayonu, Nəsibbəy Yusifbəyli küçəsində dəyəri bir neçə milyon olan 6 mərtəbəli ofis,

**4.** Bakı şəhəri, Yasamal rayonu, Məhəmməd ibn Hinduşah Naxçıvani küçəsi 15 saylı ünvanda yerləşən qeyri-yaşayış sahəsi,

**5.** "Port Baku Residence" yaşayış kompleksində ümumi sahəsi 375 kvadrat metr olan 1109 B saylı mənzil, 228 və 233 saylı dayanacaq yerləri,

**6.** Qəbələ şəhəri, S.Ə.Şirvani küçəsi 112 ünvanında mülkiyyətində olan 0.14 ha torpaq sahəsi və üzərində yerləşən fərdi-yaşayış evi.

### Həbib Axundovun adına olan əmlaklar:

**1.** Bakı şəhəri, Nərimanov rayonu, Aşıq Alı küçəsi, 3 A ünvanında yerləşən 0.0225 hektar torpaq sahəsi və üzərində "Çardaq" çay evi,

**2.** "Port Baku Residence" yaşayış kompleksində 509 B saylı mənzil və əlavə olaraq dayanacaq yerləri.

**Bunlar isə Həbib Axundovun maşın kolleksiyası:**

**1.** "Porsche Cayenne" minik avtomobili, ili 2012, nömrə nişanı 10 HH 111, alış tarixi 19.05.2014,

**2.** "Jeep Wrangler" minik avtomobili, ili 2013, nömrə nişanı 90 XX 111. Alış tarixi 02.07.2014.

**3.** "Porsche Panamera" minik avtomobili, ili 2013, nömrə nişanı 90 RR 111, alış tarixi 15.02.2014,

**4.** "Porsche Cayenne" minik avtomobili, ili 2012, nömrə nişanı 90 CF 900, alış tarixi 03.10.2013.

Hesab edirəm ki, istintaq Həbib Axundova münasibətdə düzgün qənaətə gəlməyib. Bu gün mən də, digərləri də və Həbib Axundov da iş üzrə zərərçəkən statusundayıq. Maraqlısı budur ki, bizlərdən fərqli olaraq Həbib Axundovun ibtidai istintaqda Elnur İbrahimova qarşı ifadələri yoxdur. Elnur təqsirləndirilən şəxs, Həbib Axundov zərərçəkəndirsə, bu necə olur?

Elmira Axundova mənə olan borcun 250 min manatını qaytarmazdan əvvəl dedi ki, gedin oturun araşdırın, kimin kimə nə qədər borcu var aydınlaşdırın. Ailələrinin adamı kimi Rəşidi göndərib ki, araşdırmada iştirak etsin. Rəşid, Həbib Axundov və Elnur İbrahimov Elmira Axundovanın istəyi və birbaşa göstərişi ilə mənimlə görüşdülər. Söhbət elədik, Həbib borcu dəqiqləşdirdi. Bundan sonra Elmira Axundova məni evinə dəvət etdi və borcdan 250 min manat ödədi. Dedi ki, borcun qalan hissəsini də 2 ilə ödəyəcəklər. İndi də pulu qaytarmamaq üçün bu oyunlara gedirlər. Elmira Axundova deputatdır. O, araşdırıb və dərk edib ki, borc aldıqları pulu vermək lazımdır və verib. Söz verib ki, pulun qalanını - 200 min manatı da ödəyəcək. Elmira Axundova mənə pulu verəndə nə Firuz Haşımov, nə də Habil Vəliyev (reketliyə görə həbs olunmuş baş redaktor-red.) vardı. Məsələnin mahiyyətindən yayınmaq lazım deyil. Son məhkəmə prosesində çıxışımda Həbib Axundovun məhkəməyə gəlib cavab verməli olduğunu dedim. Elnur İbrahimovun vəkili durub Həbib Axundovu müdafiə etdi, məndən Həbib Axundov barədə danışmamağı tələb elədi. Elnurun müdafiəçisi açıq-aydın Həbib Axundova vəkillik edirdi. Hakimlər də, zalda iştirak edən media nümayəndələri də bunu gördülər".

> **"O, mənə vəd vermişdi ki, borcundan 3 aya 300 min manat pul qaytarır, qalan 150 min manatı da hissə-hissə ödəyəcək"**

*(ardı növbəti sayımızda)*

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 163 (7052) 1 avqust 2018

**İtaliya prezidenti Sercio Matarella Azərbaycan paytaxtına səfərindən bir neçə gün sonra Ermənistana getdi. Matarella və onun qızı Ermənistan xarici işlər naziri Zoqrab Mnatsakanyan, prezident Armen Sarkisyan və baş nazir Nikol Paşinyanla görüşüb.**



# Azərbaycanın müdafiə nazirindən Avropa İttifaqı rəsmisinə savaş xəbərdarlığı

## ATƏT-ə sədrlik edən İtaliya prezidentinin Ermənistanda sülh çağırışları etdiyi vaxtda Bakıya gələn avropalı təmsilçilərə ordu rəhbərliyinin xəbərdarlığı nə vəd edir? Ermənilər yenə narahatdır; **ekspert:** “Vaxt onların əleyhinə işləyir...”

ATƏT-in fəaliyyətdə olan sədrİtaliyanın dövlət başçısının Bakıdan sonra İrəvana səfər etməsi suallar doğurdu. Qeyd edək ki, Azərbaycanda yüksək səviyyədə qarşılanan, ali dövlət mükafatları ilə təltif olunan İtaliya prezidentinə Qarabağla bağlı çox ciddi mesajlar verilmişdi. Azərbaycan prezidenti İlham Əliyev italiyalı həmkarına ölkəsinin ATƏT-ə sədrlik etməsini xatırladaraq, Qarabağ məsələsinin yeganə həll variantı barədə ətraflı danışmışdı. Dövlət başçısı belə demişdi: “Bu məsələ ilə birbaşa məşğul olan Minsk Qrupunun həmsədr ölkələri prezidentlər səviyyəsində dəfələrlə bəyan etmişlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Biz bu mövqeyi dəstəkləyirik və hesab edirik ki, tezliklə münaqişənin həlli üçün addımlar atılmalıdır, Ermənistanın işğalçı qüvvələri bizim tarixi torpaqlarımızdan çıxarılmalıdır”.

İtaliya prezidentinin bundan sonra Qarabağ tənzimlənməsi ilə aktiv məşğul olacağına şübhələr olsa da, müəyyən gözləntilər də var idi. Xüsusilə də onun İrəvana getməsi və burada sülh mesajları verməsi diqqət çəkdi. Əslində ATƏT sədrinin Ermənistanı işğalçı siyasətinə görə açıq şəkildə qınayacağına inanmaq sadəlövhlük olardı. Elə onun İrəvanda “Münaqişənin həlli üçün yeganə variant sülh yoludur” məzmunlu açıqlamalarının ermənilər tərəfindən tirajlanması da Romanın bu prosesdə aktiv rol oynayacağına inamı azaldır. Üstəlik, İtaliyanın hətta TANAT-TAP məsələsində Rusiyanın iradəsindən kənara çıxa bilməməsi onun Qarabağ probleminin həllində çox irəli gedəcəyinə şübhə yaradır.

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a bildirdi ki, Azərbaycandan sonra Ermənistana da səfər edən İtaliya prezidentinə həm Bakıda, həm də İrəvanda medal verdilər:** “Bu, maraqlı məsələdir. Hansısa prezidentin Azərbaycandan dərhal sonra Ermənistana səfər etməsi bizim xoşumuza gəlmir. Ancaq indiki halda İtaliyanın ATƏT-in hazırki sədri olduğunu nəzərə almalıyıq. Bu təşkilat sözdə də olsa, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olur. Ona görə də ATƏT-ə sədrlik edən dövlət bir-biri ilə müharibə vəziyyətində olan Azərbaycanla Ermənistan arasında balans saxlamağa çalışır. Əgər ATƏT sədri olan ölkənin prezidenti bu dövlətlərdən yalnız birinə səfər etsəydi, bu onun vasitəçi kimi mövqeyinə mənfi təsir edərdi. Buna baxmayaraq, İtaliya ilə Azərbaycan arasındakı əməkdaşlıq imkanları İtaliya-Ermənistan arasındakı əməkdaşlıq imkanlarından daha genişdir. İtaliya ilə Azərbaycan arasında ticarət mübadiləsi milyardlarla dollarla ölçülür. Buna görə də İtaliya prezidenti Ermənistanda daha çox humanitar əlaqələrdən və tarixi yaxınlıqdan danışa bilirdi”.

Bu arada Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun ölkəmizdə səfərdə olan Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə səsləndirdiyi fikirlər də diqqət çəkdi. Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, cəbhə xəttindəki hazırkı vəziyyətin müzakirə olunduğu görüşdə general-polkovnik Z.Həsənov vurğulayıb ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi münaqişənin nizamlanması ilə bağlı danışıqlarda tərəqqinin əldə edilməsinə başlıca maneədir. Müdafiə naziri qonaqların diqqətinə çatdırıb ki, Ermənistanın yeni rəhbərliyinin Azərbaycanın əleyhinə yönəlmiş hərbi ritorikalı çıxışları, xüsusilə baş nazir və müdafiə nazirinin öz övladlarını ölkəmizin işğal olunmuş ərazilərinə hərbi xidmətə göndərmələri bu hakimiyyətin də münaqişənin sülh yolu ilə həllində maraqlı olmamasına sübutdur. General-polkovnik Z.Həsənov xüsusi qeyd edib ki, münaqişənin tezliklə həll edilməsi üçün Ermənistan beynəlxalq hüququn norma və prinsiplərinə əməl etməklə işğalçı ordusunun bölmələrini torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarmalıdır. Əslində Azərbaycanın müdafiə nazirinin Paşinyanın təxribatına cavabı ciddi məsələdir. İndi görək beynəlxalq təşkilatlar Bakının bu xəbərdarlığına necə reaksiya verəcək. İşğalçı ölkənin hökumət başçısının öz oğlunu Qarabağa xidmətə göndərməsi açıq-aşkar savaşa təhrik etməkdir. Əgər Avropa İttifaqı, yaxud ATƏT-in rəhbərliyi Qarabağ məsələsini sülh yolu ilə həll etmək istəyirlərsə, ən azı Paşinyanın davranışlarının cavabını verməlidirlər.

Müdafiə Nazirliyindən verilən digər məlumata görə, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonadakı hərbi hissələrə gələrək tikilməkdə olan bir sıra hərbi obyektlərə baxış keçiriblər.

**“Azərbaycan müdafiə nazirinin Avropa Şurasının rəsmisi ilə görüşündə bir daha onun diqqətinə Ermənistanın hazırkı naşı və hoqqabaz baş naziri Nikol Paşinyan və komandasının bəzi hərəkətləri ilə bağlı məqamı çatdırması əslində çox doğru taktika idi. Çünki həmin avropalı şəxsin ermənilərlə də danışıqları gözlənilir və onun bu haqda məlumatlı olması lazım idi”.**

**Bu fikirləri hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov “Yeni Müsavat”a açıqlamasında bildirdi. Ekspert beynəlxalq təşkilatın təmsilçilərinin üzərinə düşən missiyanı da xatırlatdı:** “Qoy onlar Ermənistan siyasi-hərbi rəhbərliyindən imkan daxilində soruşsunlar ki, axı siz gah özünüzü Qarabağla bağlı məsələlərdə yaxanızı kənara çəkmiş kimi göstərmiş kimi olursunuz. Gah da nümayişkaranə şəkildə həm baş nazirin özü, ardınca da müdafiə nazirləri öz övladlarını Azərbaycanın işğal altında qalan Qarabağ ərazisinə hərbi xidmətə yollayırlar. Bunu da bəh-bəhlə təbliğ edirlər ki, guya bunlar sülh istəyirlər. Necə deyərlər, ay bədbəxtlər, siz əgər sülh istəyirsiniz və bunu arzulayırsınızsa, qoy əsgər və zabitləriniz Ermənistan ərazisində xidmət keçsinlər də. İndiki halda Avropa rəsmisi üçün bir daha müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən faktın diqqətə yetirilməsi lazım idi. Əslində isə biz bilirik ki, hazırkı durumda ermənilərin əsgər sarıdan həm ölkələrinin daxilində, həm də işğal altında hələlik saxladıqları Qarabağ ərazisində çox böyük sıxıntıları var. Övladlarını da ora göndərməklə, özlərində və ətraflarında belə bir təəssürat yaratmaq istəyirlər ki, guya orada heç bir müharibə, risk qorxusu yoxdur. Amma ermənilərin naşı, hazırlıqsız siyasi və hərbi rəhbərliyi gözəl bilir ki, onsuz da gec-tez Azərbaycan ordusu veriləcək tapşırığı icra edəcək. Onda ermənilərin yaşayacaqları fəlakətə heç kim kömək edə bilməyəcək. Vaxt isə onların əleyhinə sürətlə işləyir”.

Ordu rəhbərliyinin cəbhə bölgəsinə səfəri adətən erməniləri təşvişə salır, yəqin bu dəfə də analoji reaksiya olacaq. Bu günlərdə erməni hərbi ekspertlərdən biri etiraf edib ki, vəziyyət çox təhlükəlidir və hər an müharibə başlaya bilər. Azərbaycanın təmas xəttindəki hazırlıqlarını və ölkə rəhbərliyinin prinsipial mövqeyini xatırladan erməni hərbi ekspert payıza doğru vəziyyətin daha da gərginləşəcəyindən ehtiyatlandığını ifadə edib.

**Ü.Cəfərovun fikrincə, əslində nə qədər ki, münaqişə öz həllini tapmayıb, savaş riski həmişə var:** “Lakin Ermənistanın hazırkı rəhbərliyi gözəl anlayır ki, vəziyyət cəbhədə gərginləşsə onlar çox acınacaqlı durumla üzləşə bilərlər. Bu günlərdə Azərbaycan xarici işlər nazirinin ”Ermənistan bizdən vaxt istəyib" kəlməsi də dediklərimizə sübutdur. Amma bu vaxtı o yaramazlar tamam başqa məqsədlər üçün istifadə etməyə çalışırlar. Bir qədər özlərinə gəlmək, ortada olan boşluqları doldurmaq və istəklərini həyata keçirmək. Buna bizim diqqət etməmiz gərək".

Erməni mənbələri iddia edib ki, Azərbaycan tərəf ATƏT müşahidəçilərinin Naxçıvan istiqamətindən monitorinq keçirməsinə mane olur. Ermənistan Naxçıvan istiqamətindən əks-zərbənin endirilməsindən o qədər həyəcana düşüb ki, ATƏT müşahidəçilərini o istiqamətə yönəltməyə çalışır. Xüsusilə də Ermənistanın Rusiyanın iradəsindən kənara çıxıb Gürcüstandakı NATO təlimlərinə qatılmaqla bağlı qərar verməsi İrəvanda birmənalı qarşılanmır. Hesab olunur ki, savaş başlasa, Ermənistan Rusiyanın köməyindən məhrum duruma düşə bilər.

Ermənistan Müdafiə Nazirliyi NATO-nun tədbirinə qatılmasına haqq qazandırmaq üçün müxtəlif bəhanələr səsləndirməyə başlayıb. NATO-nun “Layiqli tərəfdaş 2018" təlimi fikirlərini bölüşən Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovanisyan Rusiyanın qəzəbindən qorunmaq üçün bu təlimin NATO yox, guya Gürcüstanın keçirdiyini iddia edib. ”Erməni zabitləri təlimə Gürcüstan Müdafiə Nazirliyi dəvət edib", - deyə o bildirib.

**Ü.Cəfərov dedi ki, Ermənistan MN-in sözçüsünün qorxaqcasına özlərini sığortalamaq cəhdi heç bir çərçivəyə sığmır:** “Rusiyanın onların addımlarına verəcək kəskin münasibəti yumşaltmaq üçün tez-tələsik deyiblər ki, guya bu təlimlərə onlar, sadəcə, 4 nəfər zabitlə qatılıblar. Özü də NATO-nun deyil, Gürcüstan tərəfinin dəvəti ilə. Bunu yalnız erməni ağılsızı deyə bilərdi və dedi də. Bu özündənrazı, təkəbbürlü Artsrun Hovanesyan guya bilmir ki, bu təlim NATO təlimidir və Gürcüstan, sadəcə, ev yiyəsidir? Gözəl bilir. O fikirləşir ki, onsuz da bir şey deməlidir. Və dediyi də çox gülünc və absurddur. Bir sözlə, son vaxtlar müşahidə etdiyimiz Ermənistan siyasi-hərbi komediyası davam edir. Nəticəsini isə yaxın vaxtlarda görəcəyik. Mənim proqnozum odur ki, Ermənistan etdiyi özbaşınalıqlara görə çox ağır bədəl ödəməli olacaq. Bunu rus tərəfi səbirsizliklə edəcək. Ona da ”rus ayısı" deyərlər".

O da məlum olub ki, Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin görüşündə dövlət başçılarının görüşü razılaşdırılmayıb. Bunu Ermənistan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Tiqran Balayan deyib. Onun sözlərinə görə, hələlik ATƏT-in Minsk Qrupundan da belə bir təklif gəlməyib. Vəziyyətin narahatlıq doğurduğunu ermənilər açıq etiraf edirlər. Hətta MDB İnstitutunun direktor müavini, rusiyalı hərbi ekspert Vladimir Yeviseyev deyib ki, Paşinyanın bu davranışları Qarabağın əldən getməsi ilə nəticələnə bilər.

Hazırda Ermənistanda klanların sıradan çıxarılması istiqamətində həyata keçirilən proses erməniləri və onların havadarlarını qorxuya salıb. Düzdür, Paşinyan bununla Qarabağı Azərbaycana qaytarmağa hazırlaşmır, sadəcə, hakimiyyətinə problem yaradanları sıradan çıxarır. Amma istənilən halda cinayətkarların dayaqları sarsılır və Azərbaycan üçün fürsətlər yetişir.

Azərbaycan Respublìkasının Prezìdentì yanında Kütləvì İnformasìya Vasìtələrìnìn İnkìşafına Dövlət Dəstəyì Fondunun malìyyəsì əsasında. Səhìfənì hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 163 (7052) 1 avqust 2018

# Rusiya Köçəryanı xilas edə biləcəkmi?

## Əhəd Məmmədli: "Onun həbsi Rusiyanın Ermənistandakı imicinə ciddi zərbədir"

## Nəzakət Məmmədova: "Köçəryanın Ter-Petrosyandan hakimiyyəti 1998-ci ildə qəsb etməsi nəzərə alınsa..."



Robert Köçəryan

**Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın həbsi gündəmin mövzularından biridir. Çoxları hesab edir ki, Ermənistanın baş naziri Nikol Paşinyan "Qarabağ klanı"na, xüsusilə ölkə daxilində Kremlə yaxınlıqları ilə seçilən şəxslərə qarşı başlatdığı bu prosesi başa çatdıra biləcək. Rusiyanın qapazaltısı sayılan təcavüzkar ölkədəki bu proseslərin qarşısını alacağını düşünənlər də az deyil.**

**Politoloq Əhəd Məmmədli** Köçəryanın həbsini Rusiyanın Ermənistandakı imicinə ciddi zərbə sayır: "Köçəryanın Rusiyaya yaxınlığı sirr deyil. Onun həbsi rəsmi Moskva ilə razılaşdırılmayıbsa, razılaşdırılmalıdır. Əgər bu razılıq yoxdursa, Paşinyan hakimiyyətinə ciddi problemlər yarana bilər. Razılaşdırılsa belə, açığı, Köçəryanın uzun müddət həbsdə qalacağına inanmıram. Çünki istənilən halda onun həbsi Rusiyanın Ermənistandakı imicinə ciddi zərbədir. "Qarabağ klanı" və Rusiyaya yaxın insanlara bütövlüklə hücum nəinki Paşinyan hakimiyyəti, bütövlükdə Ermənistan üçün ciddi fəsadlarla nəticələnə bilər. Azərbaycan da əlindən gələni etməlidir ki, bu fəsadlar yaxınlaşsın və Ermənistan üçün gerçəkləşsin. Azərbaycanın Köçəryan, Sərkisyan və bütövlükdə erməni terrorçularına qarşı ən gözəl cəzası Xocalının intiqamını alıb Qarabağı azad etmək, bununla kifayətlənməyib Zəngəzur, Göyçə gölü və İrəvan istiqamətində irəliləməkdir. Köçəryan kimilərə bundan gözəl cəza ola bilməz".

**Beynəlxalq əlaqələr üzrə mütəxəssis Nəzakət Məmmədovaya görə, Köçəryanın həbsi Ermənistanın anti-Rusiya kampaniyasının bir hissəsidir:** "Köçəryan Putinin Ermənistanda ən etibar etdiyi insanlardan biridir. Hətta Sərkisyan belə onun qədər Putinin etimadını qazana bilməyib. Lakin burada söhbət Köçəryandan yox, Qərbin Paşinyanın əli ilə Rusiyanın Ermənistandakı adamları ilə haqq-hesab çəkməsindən gedir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Xaçaturova qarşı cinayət işi də bu kampaniyanın bir hissəsidir. Bütün bunlar Rusiyanın Ermənistandan çıxarılması ilə yanaşı, konkret olaraq oktyabrda Paşinyanın keçirmək istədiyi parlament seçkiləri ilə bilavasitə bağlıdır. Hazırda Rusiyanın Ermənistan üzərində bir çox təzyiq vasitələri, onun daxili siyasətinə təsir alətləri var. Belə ki, Gümrüdə 102-ci hərbi baza varsa, parlamentdə də Respublika Partiyası qalmaqda davam edir. Paşinyanın məqsədi rusiyayönümlü qüvvələri siyasi səhnədən mümkün qədər zəiflətməkdir. Lakin Paşinyan konkret şəkildə erkən parlament seçkilərinin olmayacağını bildirib. Görünən odur ki, payıza qədər Paşinyan Rusiyanın Ermənistandakı siyasi manevr imkanlarını azaltmalı, onun adamlarını sıradan çıxarmalıdır. Peşəkar hərbçi Xaçaturov, keçmiş prezident Köçəryan bu baxımdan ön sırada gedənlərdir və onların həbsi Rusiyaya açıq-aşkar demarşdır. Eyni zamanda Xaçaturovu həbs etməklə Paşinyan Rusiyanın hərbi çevriliş planlarına mane olmaq istəyir. Burada qisas amilini də unutmaq olmaz. Ter-Petrosyan hazırda Paşinyanın "xaç atası", Ermənistan siyasətinin "boz kardinalı" rolunda çıxış edir. Onlar arasında bu yaxınlarda İrəvanda dövlət iqamətgahında görüş keçirilmişdi. Görüşün yalnız Qarabağla bağlı müzakirə hissəsi barədə mətbuata məlumat ötürülsə də, lakin indi aydın olur ki, əsas müzakirə mövzusu daxili siyasət, rusiyayönümlü qüvvələrə qarşı mübarizə məsələləri olub. Proseslərdə rəsmi ittiham 2008-ci ilin mart hadisələri ilə bağlı olsa da, Köçəryanın Ter-Petrosyandan hakimiyyəti 1998-ci ildə qəsb etməsi nəzərə alınsa, burada Ter-Petrosyanın keçmiş hadisələrə görə revanş alması da mümkündür. Çox güman ki, Paşinyan Rusiyanın nüfuzlu siyasi, hərbi xadimləri vasitəsilə Ermənistandakı daxili siyasi proseslərə, o cümlədən erkən keçirilməsi nəzərdə tutulan parlament seçkilərinə müdaxiləsinin qarşısını almaq üçün həmin şəxsləri siyasi proseslərdən təcrid edir. Bu proseslərə Sərkisyanın da cəlb edilməsi mümkündür. Ümumiyyətlə, Azərbaycana qarşı müharibə cinayətləri etmiş şəxslər Rusiya ilə bağlı olub, sonradan "Qarabağ klanı" adı altında Ermənistanda yüksək vəzifələr tutublar və bu həbs dalğasının onları da əhatə edəcəyi istisna olunmur. Onların aqibətinin də keçmiş Yuqoslaviya, Ruanda hərbi caniləri kimi beynəlxalq tribunallarda məhkumluqla nəticələnəcəyi aydındır".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# "Vaşinqton Ankaradan istədiyini ala bilməyəcək"

## Hasan Oktay: "Amerikanın bölgədə Türkiyəyə ehtiyacı var..."

**ABŞ və Türkiyə arasında gərginlik hər keçən gün daha da yüksəlir. 2016-cı il 15 iyul qiyamından sonra Vaşinqton və Ankara arasında bir neçə ildir davam edən soyuqluq daha da qabarıq hiss olunmağa başlayıb. Ankara FETÖ lideri Fətullah Gülənin Türkiyəyə verilməsini tələb edir, həmçinin bəzi ABŞ rəsmilərini qiyama dəstək verməkdə ittiham edir.**

Daha sonra Türkiyənin Rusiya ilə yaxınlaşması, eləcə də Rusiyadan S-400 Hava Hücumundan Müdafiə Sistemlərinin alınması müqaviləsi Ankara-Vaşinqton xəttində ciddi narazılıq doğurub. Türkiyə hakimiyyətinin İzmirdə yaşayan amerikalı rahib Bronsonu 15 iyul qiyamında iştirakda ittiham edərək həbs etməsi Vaşinqtonda Ankaraya qarşı qəzəbi daha da artırıb. Rahib Bransonun ötən həftə həbsdən azad edilərək ev dustaqlığına buraxılması gözlənildiyinin əksinə olaraq, Vaşinqtonu razı salmayıb. Amerikalı yetkililər qərarı razılıqla qarşılasalar da, rahibin azad edilməli olduğunu bildiriblər. ABŞ vitse-prezidenti Mayk Pens isə bəyan edib ki, rahib Bransonu azad edənə qədər Türkiyəyə embarqolar daha da artırıla bilər.

Türkiyə-ABŞ münasibətləri iyulun 30-da Türkiyənin ali dövlət orqanı olan Milli Təhlükəsizlik Şurasının (MTŞ) toplantısında da əsas müzakirə mövzusu olub. Türkiyənin prezident idarəçilik sisteminə keçidindən və bəzi dəyişikliklərdən sonra ilk dəfə keçirilən MTŞ toplantısı 5,5 saat davam edib. Toplantıda həmçinin Türkiyə dövlətinin Suriya siyasəti, FETÖ, PYD, YPG ilə mübarizə məsələləri də müzakirə olunub. Toplantıdan sonra yayılan rəsmi açıqlamada qeyd olunur ki, Türkiyə Birləşmiş Ştatların təhdid dilini qəbul etmir. Rəsmi Vaşinqtonun bu cür davranışı ölkələr arasındakı müttəfiqlik münasibətlərinə uyğun deyil. Sitat: **"ABŞ tərəfindən Türkiyənin ünvanına istifadə edilən təhdid dili hörmətsizlikdir və bu, tamamilə yolverilməzdir".**

Prezident Ərdoğan isə Afrika səfəri zamanı Amerikanın sanksiya təhdidlərinin onları narahat etmədiyini bildirib. Ancaq vəziyyətin bu həddə çatması ciddi narahatlıq doğurur. Türkiyədə milli valyutanın sürətlə dəyərdən düşməsi, hətta Bransonun ev dustaqlığına buraxılmasından sonra müəyyən qədər dəyər dayansa da, maliyyə bazarında təlatümlər yenə gözlənilir. Vaşinqton isə açıq şəkildə sanksiya silahından istifadə edəcəyini bəyan edir.

**Türkiyəli politoloq, "Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin başqanı Hasan Oktay deyir ki, münasibətlərin bu həddə çatması Vaşinqtonun hazırkı rəhbərliyinin qeyri-stabil siyasəti ilə əlaqədardır:** "Prezident-hökumət sistemində ilk dəfə toplanan Milli Təhlükəsizlik Şurası 5 saat yarım davam edib. Əsas müzakirə mövzuları sırasında ABŞ-ın xüsusən də Suriya mövzusunda Türkiyə ilə yaranmış fikir ayrılıqları, həmçinin Türkiyənin Rusiyadan almağı planlaşdırdığı S-400 sistemləri mövzusu Amerikada ehtiyatla qarşılanıb və belə anlaşılır ki, Vaşinqtonun Türkiyəyə qarşı siyasətini yenidən gözdən keçirməsinə səbəb ola bilər. Xüsusən də prezident olduqdan sonra İran məsələsində qeyri-sabit və nizamsız yanaşması ilə seçilən Donald Trampın İrana qarşı həyata keçiriləcək mümkün əməliyyatda Türkiyənin qeydsiz-şərtsiz Amerikanın yanında olmasını istəyir və Ankaranın buna razı olmaması Vaşinqtonun hazırkı rəhbərliyini qəzəbləndirir. Nəticədə ortaya bu cür mənzərə çıxır".

**H.Oktayın sözlərinə görə, Vaşinqton rahib Branson işinə görə Ankaraya təzyiq etməyə başlayıb. Vəziyyət həta diplomatik nəzakət qaydalarını ötüb:** "Xüsusən də xristian din adamının həbsinə görə Türkiyə-ABŞ əlaqələri son dərəcə kəskinləşib və hətta diplomatik üsluba yaraşmayan açıqlamalar verilib. Bu anlamda Türkiyəyə embarqo tətbiq oluna biləcəyi haqda açıqlamalar verildiyi üçün MTŞ-nin toplantısında Amerikanın bu diplomatik nəzakətdən uzaq mövqeyinə yumşaq bir formada cavab verilib. Açıqlamada ABŞ-la əlaqələri nəzərdə tutaraq, "ABŞ-ın ölkəmizin hər cür öhdəliyini yerinə yetirdiyi müdafiə sənayesi layihələrini, beynəlxalq anlaşmalara zidd olan şərtlərə bağlayan açıqlama və qərarlarının, iki ölkə arasında strateji ortaqlıq və etimada bərpası mümkün olmayan zərərlər verəcəyi" vurğulanıb".

**Hasan Oktay deyir ki, Türkiyə ABŞ və Qərb müttəfiqləri ilə münasibətlərdə üzərinə düşən bütün öhdəlikləri yerinə yetirən tərəf olub. Lakin başda Amerika olmaqla, Avropa Birliyi və digər müttəfiqlər əməkdaşlıq əlaqələri zamanı Türkiyə qarşı tərəfdən gözlədiyi diqqəti və münasibəti görməyib. Bunun əvəzinə davamlı olaraq təhdidlə qarşılaşıb. Ekspertə görə, Suriyadakı vəziyyət, İran ətrafında baş verənlər, həmçinin Rusiya-Türkiyə əlaqələri ABŞ-da xoş qarşılanmır. Və buna görə də Ankara ilə sərt ritorika ilə danışılır:** "Bu səbəbdən də Türkiyəyə qarşı diplomatik nəzakətə uyğun gəlməyən bir dildə cavab verilir. Ancaq düşünürəm ki, Türkiyə 200 ildir davam edən qərbləşmə siyasətindən imtina etməyəcəyi kimi, Qərbdən gələn təhdid ritorikasını da həzm etməyəcək".

**Ancaq "Kafkassam" başqanı ümid edir ki, münasibətlər yaxın zamanlarda qaydasına düşər:** "Gərginləşən Türkiyə-Amerika əlaqələri yaxın bir zamanda təkrar normal vəziyyətinə qayıdar. Amerikanın bu bölgədə güvəndiyi yeganə müttəfiqi Türkiyədir. Türkiyə isə vəziyyəti obyektiv qiymətləndirdiyi üçün regional gücləri prosesə cəlb edərək, özünəməxsus bir ölçü formalaşdırmağa çalışır. Çünki Amerikanın bu günə qədər apardığı siyasət bölgədə istiqrarlı bir gələcək qurmaqdan daha çox, hər şeyi öz nəzarəti altına götürməyə xidmət edib. Bu siyasət isə Türkiyənin mənafeyi baxımından sağlam nəticələr verməyəcəyi üçün Türkiyə regional güc mərkəzlərini də nəzərə almaqla, xarici siyasət formalaşdırmağa çalışır".

**Hasan Oktay düşünür ki, Vaşinqtonun embarqoları Türkiyəyə ağır zərbə vura bilməz, ancaq bunun əvəzinə Vaşinqtonun özünün bu embarqoları uzun müddət davam etdirmək imkanları yoxdur:** "Türkiyə Vaşinqtonun embarqolarından çox da təsirlənməyəcək, amma Vaşinqton da bu xətti uzun müddət davam etdirə bilməz. Yaxın zamanda Suriya və İran məsələsində gözləniləndən də artıq hadisələrin baş verməsi ehtimal ki, həm Amerikanı, həm də Türkiyəni həyəcanlandırır. Ancaq Vaşinqtonun istədiyini alacağını düşünmürəm. Çünki Türkiyə İrana qarşı hərbi müdaxiləyə imkan verməyəcək qədər dövlət ənənəsinə sahib bir ölkədir".



❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 163 (7052) 1 avqust 2018

# Azərbaycan bazarlarında zəhərli uşaq geyimləri satılır - SOS!

## Eyyub Hüseynov: "Bunların çoxu qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilir"
## Vaqif Qarayev: "Qəpik-quruşa satılan keyfiyyətsiz geyimlər sağlamlığa ziyandır"

**Türkiyə də daxil olmaqla, bir çox ölkələrdə azyaşlılar üçün istehsal edilən ayaqqabıların sağlamlığa zərərli olduğu təsbit edilib. İtaliyanın Milan şəhəri və ətraf rayonlarında aparılan araşdırmalar zamanı məlum olub ki, zərərli tullantılar qeyri-qanuni şəkildə yenidən istehsala qaytarılır.**



Zərərli tullantılardan əldə edilən xammaldan isə uşaq ayaqqabılarının və bir sıra üst geyimlərin istehsalında istifadə edilir. Bu səbəbdən Türkiyədə tullantıların toplanması ilə məşğul olan şirkətlərdə monitorinqlər aparılıb.

Bu tullantılardan əldə edilən saxta "PVC" xammallar normal bazar qiymətindən 3 dəfə ucuz satıldığı üçün Türkiyə, Meksika, Kanada, Mərakeş və bir çox başqa ölkələrdə şirkətlər bundan plastik sənayedə, uşaq ayaqqabısı və rezin çəkmə kimi çox sayda məhsulların istehsalında istifadə edir.

Sovetlər dövründə Rusiya istehsalına üstünlük verilsə də müstəqillikdən sonra Azərbaycanda seçimlər daha çox türk malından yana olur. Paltarın etiketinə baxır, "Made in Turkey" yazılıbsa, parçanın keyfiyyətli olduğuna tərəddüd etmədən alırıq.

Nəzərə alsaq ki, bizdə də əksər valideynlər övladlarına geyim alarkən Türkiyədə istehsal olunan geyimlərə üstünlük verirlər, onda yuxarıda sözügedən zərərli materialdan hazırlanmış geyim və ayaqqabıların Türkiyədən Azərbaycan bazarına nüfuz etdiyini ehtimal edə bilərik. Habelə, son vaxtlar Azərbaycana Mərakeş, Pakistan malları da nüfuz edib.

**"Yeni Müsavat"a danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirir ki, uşaq geyimləri bağlı şikayətlər daim gəlir:** "Baxmayaraq ki, uşaq geyimlərinin üzərində 100 faiz pambıq yazılıb, lakin yandıranda pambıq qoxusu verməməyi, uşaq geyimlərinə yaş tənzif sürtərkən, eləcə də yuyan zaman rənginin çıxması kimi şikayətlər ilboyu daim gəlir. Bazarda bu sahədə vəziyyət heç də yaxşı deyil. Ölkədə biznes qurumları üçün kifayət qədər şərait yaradılıb. Əfsus olsun ki, bu biznes qurumlarda istehlakçını aldatmaq məsələsi lap pik nöqtəyə çatıb. Ölkədə istehlakçı hüquqlarını qoruyan təşkilat, dövlət qurumu yox dərəcəsindədir. Qanunların olmasına baxmayaraq, istehlakçılar, əmtəə bazarı bunları qorumur. Ona görə də təhlükəli mallar, uşaq geyimləri Azərbaycan əmtəə bazarında satılır və bunların çoxu qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilir. Heç onun keyfiyyətinə də nəzarət yoxdur. Bu da Azərbaycan körpələrinin, uşaqlarının sağlamlığında öz mənfi izini tapır. Bir neçə ay öncə ölkə prezidentinin sərəncamı ilə Bazara Nəzarət üzrə Dövlət Agentliyi yaradılıb. Lakin bu günə kimi onun əsasnaməsi yoxdur ki, onlarla işləyək. Şikayətləri göndəririk İqtisadiyyat Nazirliyinə, oradan da cavab alırıq ki, məhkəməyə müraciət edin. Bu da onu göstərir ki, bazara nəzarət yoxdur. Nəzarət olmayan yerdə cinayət baş verir, təhlükəli mallar, o cümlədən uşaq geyimləri də satılır".

**Pediatr Vaqif Qarayev valideynləri xəbərdarlıq edir ki, ucuz geyimlər uşaq orqanizminə ziyandır:** "Metro stansiyalarının giriş-çıxışında Çində istehsal olunan keyfiyyətsiz geyimlər var. Ayaqqabı, köynək, şalvar və s. qəpik-quruşa satılır, amma materialı həddindən artıq keyfiyyətsizdir. Bu geyimlər uşaqların sağlığına birmənalı ziyandır. Yay ayaqqabıları da, qış ayaqqabıları da, köynəkləri, şalvarları da dəridə müxtəlif allergik xəstəliklər, səpkilər yaradır. Hətta bəzi materiallarda deyirlər, cüzi də olsa, şüalanma da olur. Nə dərəcədə doğrudur, bilmirəm. Amma dəqiq bilirəm ki, ucuz geyimlər uşaq orqanizminə ziyandır. Xüsusən də allergiyadan əziyyət çəkən uşaqlarda sintetik materiallar allergiya verəcək. Dəridə yaralar da yarada bilir. Yoxlama vaxtı mən görürdüm, uşağın dərisində müxtəlif yaralar var, sintetik paltarla təmas kəsiləndən sonra yaralar öz-özünə keçirdi".

❑ **Ləman MUSTAFAQIZI,**
**"Yeni Müsavat"**



## Məşhurlarımızın çəkildiyi "Milyonluk kuş" təqdim olunacaq

**Azərbaycanlı məşhurların rol aldığı, Türkiyə istehsalı olan "Milyonluk kuş" filminin təqdimat günü bəlli olub.**

Musavat.com xəbər verir ki, "Artlemma" film şirkətinin istehsalı olan ekran işinin Türkiyədə təqdimat mərasimi avqustun 17-də baş tutacaq. Ekran işində baş rollarında Türkiyənin populyar sənətçiləri Ufuk Özkan, Mehtap Bayri və Azərbaycanın tanınmış aktyoru Müşviq Şahverdiyev rol alıb.

Ondan əlavə, Dilarə Əliyeva, Aysel Nazim, Gökçe Özyol çəkilib. Filmin ssenarisi Təvəkkül Mehrəliyevə aiddir. "Milyonluk kuş"un Bakıda qala gecəsi isə oktyabrda keçiriləcək.

Film haqqında danışan **Müşviq Şahverdiyev** deyib ki, filmdən gözləntiləri böyükdür: "Artıq bu filmimiz işıq üzü görür. Bu iş mənim üçün tam fərqlidir. Film sektoruna başlayandan əldə etdiyim uğurlar göz qabağındadır. İlk dəfə ölkədən kənarda rol aldım. Həmin filmdə Türkiyənin tanınmış aktyorları ilə rol almışam. Təvəkkül dostumuz sözügedən filmdə oynamağı mənə təklif etdi. İlk başlarda tərəddüd etdim, özümü yaxşı göstərə bilməzdim. Çünki türk dilini yaxşı bilmirdim. Ufuk özü də bildirdi ki, mənə də Azərbaycan dilində ssenari verilsə, mən də çətinlik çəkərəm. Bakıya qayıdan kimi 3 günə ssenarini oxuyub əzbərlədim. Qarşıma məqsəd qoydum ki, ölkəmizi layiqincə təmsil edim. Bəli, bu film mənim üçün Türkiyə bazarına qapı ola bilər. Keçən il bazarda olan sıxlıqlara görə film bu ilin avqust ayının 17-si Türkiyədə təqdim olunacaq. Daha sonra noyabr ayı üçün Bakıda qala gecəsi olacaq. Sevinən dostlarımız sevinsin, paxıllıq çəkənlərə isə Allahdan şəfa diləyirəm. Onların da canı sağ olsun. Gözləntilərim çox böyükdür. Türklərin böyük media saytları məndən yazıb danışırdılar. Bu xəbərləri görəndə sevincdən bədənim əsirdi. Oranın mətbuatının məndən yazması böyük uğurdur. Məni "kahkaha makinesi" kimi təqdim edirdilər. Hər insanı sevən də olur, sevməyən də. Öz həmyerlilərimə səslənirəm ki, hər kəsə uğurlar diləyirəm. Mənim heç kəsin işində gözüm yoxdur. Mənim də işimdə gözünüz olmasın".

❑ **Könül,**
**Musavat.com**

# İş adamı ilə Aslan İsmayılovun məhkəməsi başa çatdı - il yarım cəza...

## Mürvət Həsənli: "Qapı-qapı gəzib, insanları şantaj edir ki…"

**Tanınmış iş adamı, "Xəmsə" MMC-nin sahibi Mürvət Həsənli ilə vəkil Aslan İsmayılov arasında bir ildən çoxdur davam edən məhkəmə prosesi dünən başa çatıb. Səbayel Rayon Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə baş tutan məhkəmə iclası hakimin Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin işlə bağlı göndərdiyi sənədlərlə tərəfləri tanış etməsi ilə başlayıb.**

Daha sonra hakim məhkəmə istintaqının yekunlaşması barədə ittiham və müdafiə tərəflərinə müraciət edib. İttiham tərəfinin narazılığı olmasa da, təqsirləndirilən şəxs A.İsmayılov buna etirazını bildirib. Hakim buna məhəl qoymayaraq, məhkəmə istintaqının yekunlaşdığını elan edib. Bundan sonra məhkəmə çıxışları üçün tərəflərə söz verilib. Bu zaman əvvəlki proseslərdə olduğu kimi yenə də gərginlik yaşanıb.

**M.Həsənli bir daha A.İsmayılovun məhkəmə zalında həbs edilməsi barədə məhkəmədən hökm çıxarılmasını xahiş edib:** "Heç bir məhkəmə hökmü olmadan bu şəxs bir iş adamını dələduz adlandırır. Bir neçə fakt deyəcəm. Bu şəxsin dediyi kimi, guya məni Baş Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində üç sutka saxlayıblar. Əgər mən üç sutka saxlanılmışamsa, siz də yaxşı bilirsiniz ki, 48 saatdan artıq saxlanılanda məhkəmə qərarı olur, o zaman barəmdəki o qərar niyə yoxdur? Korrupsiyaya Qarşı Mübarizə İdarəsində də bir sutka saxlanıldığımı deyir. Araşdırma üçün məni çağırıblar, mən də gedib, sadəcə, izahatımı vermişəm. Artıq bir il yarımdan çoxdur ki, bu məhkəmə prosesi gedir. Hər zaman verdiyimiz iddia ərizələri siz tərəfindən rədd edilir. Bu gün (dünən -red.) baxdığınız iddia ərizəsini Ali Məhkəmənin qərarından sonra vermişik ki, qəbul olunsun. İstintaqı yekunlaşdır-


Mürvət Həsənli


Aslan İsmayılov

maq istəyirsiz. İstintaqı yekunlaşdırmaq üçün sizin əlinizdə olan əsas odur ki, bu şəxsin dərhal həbs edilməsi barədə qərar çıxarın. Ona görə həbs edin ki, bu şəxs buradan çıxandan sonra klavyatura arxasında özünü çox rahat hesab edir, hər kəs haqqında böyük hədyanlar yağdırır. Qapı-qapı gəzib, insanlar şantaj edir ki, siz Mürvəti durdurun, əgər durdurmasanız sizlərdən yazacam. Bu insanın qarşı tərəfi şər-böhtanla, şantajla qorxutmağı var. Aslan İsmayılov hüquq adına böyük cinayətlər edir".

İş adamının çıxışının bu yerində işlətdiyi bəzi ifadələrə görə hakim ona xəbərdarlıq edib. Çıxışının sonunda M.Həsənli bir daha hakimdən hüquqşünasın həbsi barədə qərar çıxarmasını xahiş edib.

İttiham tərəfinin vəkili Sahil Əzizov hüquqlarını müdafiə etdiyi şəxsin çıxışı ilə razı olduğunu, onun da tələbinin A.İsmayılovun həbs edilməsi olduğunu bildirib.

Təqsirləndirilən şəxs çıxışı zamanı şəxsinə qarşı ünvanlanan ittihamları qəbul etməyib. Hakim ona son söz üçün çıxış vaxtı versə də, A.İsmayılov bundan imtina edərək, məhkəmə çıxışı zamanı fikirlərini ifadə etdiyini bildirib. Bundan sonra məhkəmə müşavirəyə yollanıb. Yarım saat davam edən müşavirədən qayıdan hakim qərarı elan edib. A.İsmayılovun qazancından 15% dövlət nəfinə tutulmaqla, 1 il 6 ay müddətinə islah işlərinə məhkum edilməsi barədə qərar çıxarılıb. Həmçinin o, 1500 manat cərimə olunub.

M.Həsənli musavat.com-a açıqlamasında təqsirləndirilən şəxs həbs edilmədiyi üçün apelyasiya şikayəti verəcəyini bildirib.

Qeyd edək ki, Aslan İsmayılov rəsmi facebook səhifəsində və KİV üçün keçirdiyi brifinqdə Mürvət Həsənlinin ünvanına şər-böhtan yağdırıb. Bu səbəbdən iş adamı onu məhkəməyə verərək, Cinayət Məcəlləsinin 147.2 (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə cəzalandırılmasını tələb edir.

Tərəflər arasında gərginliyin kökündə Türkiyənin "Emre Piliç" şirkətinin M.Həsənli ilə borc çəkişməsi durur. A.İsmayılov bu işdə "Emre Piliç" şirkətinə vəkillik edir.

Onu da xatırlatmaq yerinə düşər ki, Azərbaycana damazlıq yumurta ixrac edən bu şirkətin səhmdarları arasında 2 erməninin olduğu üzə çıxıb. Belə ki, ermənilər Bozaçıyan və Oksayan bu şirkətdə 30 faizlik paya sahiblik edirlər. M.Həsənli bu fakt üzə çıxandan sonra şirkətlə işgüzar münasibətləri kəsdiyini bildirir. A.İsmayılov isə əksinə, "Emre Piliç"in yarıerməni şirkəti olmasına əhəmiyyət vermədən onun müdafiəsinə qoşulub.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 163 (7052) 1 avqust 2018

# Bakının illərdir sağalmayan çimərlik "yarası"

## Fazil Mustafa: "Heç bir faydası olmayan, işləməyən bir qanun qəbul etmişik"

**Havaların isti keçdiyi günlərdə Bakıda Xəzər dənizi sahillərində yerləşən çimərliklərə üz tutub sərinləmək istəyənlərin sayı artır. Lakin məsələ burasındadır ki, ildən-ilə Xəzər sahilində pulsuz çimərliklərin sayı azalmaqdadır. Xəzərin sahilinin hasarlanması prosesi barəsində illərdir ki, mətbuatda tənqidi yazılar dərc olunur, ictimaiyyətdə narazılıqlar dilə gətirilir. Ancaq bütün bunların faydası yoxdur.**



Xəzər dənizinin sahil zolağında olan pullu çimərliklərin ən ucuzuna giriş 2 manatdır. Qiymətlər 10, 15, 25 manat arasında dəyişə bilir. Bu, içəridəki şəraitdən, qurulan attraksionlardan və digər bu kimi qurğuların müxtəlifliyindən asılıdır. 2 manatlıq çimərliklər ucuz görünsə də, əslində içəri keçdikdən sonra əlavə ödənişlər etməli oluruq. Belə ki, stol-stul üçün ən azı 15 manat ödəmək lazım gəlir. Əgər çətir altında uzanmaq istəyirsənsə, o zaman 10 manat da ödəməlisən. İçəridə bir boşqab qarpız, pendir və çörək yeyəcəksənsə, əlavə 10-15 manat xərcin çıxacaq.

Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) hər il sərəncam verərək rayon icra hakimiyyətlərinə tapşırır ki, Xəzər sahilində olan çimərliklərdə qayda-qanun yaratsınlar. Həmçinin qeyd olunur ki, Azərbaycan ərazisində sahilyanı zonalara, çimərliklərə giriş pulsuzdur və bu, nəzarət altındadır. Lakin insanların sosial şəbəkələrdə yazdıqları şikayət bunun əksini deyir.

**Onu da qeyd edək ki, ölkədə qanunla girişinə qadağa qoyulan çimərliklər də var. Hansı ki, bu çimərliklərdən istifadə etmək həqiqətən də insanların sağlamlığı üçün zərərlidir. Bu ilin iyun ayında məsələ ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşı Mirsələm Qənbərov mətbuat konfransında bildirmişdi ki, nazirlik Abşeron yarımadasının kanalizasiya şəbəkəsi olmayan ərazilərdə müvafiq standartlara cavab verən modul tipli çirkab sutəmizləyici qurğular quraşdırıb:** "Xəzər sahil zolağında aparılan monitorinqlərin nəticələri bunu deməyə əsas verir ki, Bilgəh, Buzovna, Mərdəkan, Pirşağı qəsəbələrinin sahil zolağında, "Amburan" çimərliyində, eləcə də Novxanı və Corat bağları sahil zolağında olan çimərlik sahələri yay mövsümü ilə əlaqədar hazırda çimərlik kimi istifadəyə yararlıdır və normalara uyğundur. Sumqayıt, Qaradağ rayonu Sahil qəsəbəsində "Sahil" və Səbayel rayonunun "Şıx" çimərliklərində aparılmış monitorinqlərin nəticələrinə görə, zərərli maddələrin miqdarı normadan artıqdır. Bu səbəbdən də qeyd olunan çimərliklərdən istifadə etmək məqsədəuyğun deyil".



Çimərliklərin pullu olması həm də turizm baxımından da əlverişli deyil. Onu da qeyd edək ki, "Azərbaycan Respublikasında çimərlik turizminin inkişafına dair 2017-2020-ci illər üçün Tədbirlər Planı"nın icrasının müzakirə edilməsi məqsədilə mədəniyyət və turizm naziri Əbülfəz Qarayevin sədrliyi və aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə görüş keçirilmişdi. Həmin görüşdə nazir bildirmişdi ki, Tədbirlər Planının icrası çərçivəsində cari ildə çimərlik mövsümünün açılışına qədər Bakıda 6 özəl, 6 ictimai, Xaçmazda 2 özəl, 2 ictimai, Lənkəranda 2 özəl, 1 ictimai, Astarada 1 özəl, 1 ictimai çimərliklərin yaradılması planlaşdırılır.

**"Yeni Müsavat"a danışan deputat Fazil Mustafa bildirdi ki, ölkədə ictimai çimərliklər təşkil olunmalıdır:** "Qanunda ictimai çimərliklərin olması nəzərdə tutulub. Ancaq bu, təşkil edilmədi. Çünki qanun qəbul ediləndə onun işləyib-işləməyəcəyi kimsəni maraqlandırmır. Faktiki olaraq buna guya bələdiyyələr nəzarət etməlidir. Bələdiyyələr isə özləri büdcəsiz bir qurumdur. Ona görə də heç bir mənası olmaz. Bu baxımdan da pulsuz çimərlik deyilən bir anlayışı təmin etmək üçün müəyyən qurumların mövcud olması lazımdır. O qurumlar yoxdursa, bunu kim təmin edəcək? Hansı əsaslarla quracaqlar? Ona görə də bu, çox çətin məsələdir. Qanun da qəbul olunanda bilinirdi ki, işləməyəcək. Sadəcə, formal olaraq qəbul etdik ki, guya məsələdə vətəndaşın işini yüngülləşdirmək istəyirik. Buna da nəzarət edən qurum yoxdur. Bələdiyyənin büdcəsi olmalıdır ki, ora vəsait qoysun və müəyyən qədər vətəndaşın marağını təmin edəcək şəkildə onu xidmətə yararlı vəziyyətə gətirsin. Bütün bunlar yoxdursa, heç nə etmək olmaz".

**Fazil Mustafa bildirib ki, məsələ ilə bağlı qanun layihəsi yenidən müzakirə edilə bilər:** "Qanunun müzakirə edilməsi mümkündür. Ancaq məsələ burasındadır ki, bu qurumların vətəndaşın işini yüngülləşdirməklə əlaqəsi yoxdur. Heç kim bunu düşünmür. Ona görə də vətəndaş gedib, pulunu verir və çirkli çimərlikdə çimir. Daha zəngin insanlar üçün isə yüksək səviyyədə olan çimərliklər var. Onlar da orada başlarını qatırlar. Bu baxımdan da heç bir faydası olmayan, işləməyən bir qanun qəbul etmişik".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**



# Köhnə metro vaqonlarına kondisioner quraşdırılması mümkün deyil

**"Bakı Metropolitenində köhnə qatarların kondisionerlə təchizatı mümkün deyil". Modern.az xəbər verir ki, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.**

Onun sözlərinə görə, həmin qatarların kondisionerlə təchiz edilməsi həmin qatarların konstruksiyasında nəzərdə tutulmayıb: "Bu, yalnız yeni alınan qatarlarda mümkündür. Yeni qatarların alınması mərhələli davam edir. Qatarlar istismar müddətini başa vurduqca xətdən çıxarılır. Praktik olaraq köhnə vaqonlara kondisioner quraşdırılması mümkün deyil. Yeni vaqonların alınması iki halda mümkün ola bilər. Birincisi köhnə vaqonlar istismar müddətini başa vurduğu zaman mümkündür. Bir vaqonun istismar müddəti 31 ildir. Köhnə vaqonlar istismar müddətini başa vurduqdan sonra onlar yenilərlə əvəz olunacaq. Burada da əsas məqsəd sərnişinlərin rahatlığını təmin edən vaqonları alıb istismara verməkdir. İkinci halda yeni stansiyalar istismara verildikcə, tələbata uyğun olaraq yeni qatarlar da alınacaq. Yeni yeni vaqonların hazırlanması sifariş əsasında olur".

# Paytaxtda oğurluğa "Cip"lə gedən dəstə üzvləri hakim qarşısında

**Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində bir neçə oğurluq əməli törətməkdə ittiham edilən Nurlan Ağayev, Sərhat Əmirov, Mirasəf Kərimli, Novruz Salayev və Mədət Hüseynovun cinayət işi üzrə məhkəmə iclası keçirilib. Hakim Mahmud Ağalarovun sədrliyi ilə keçirilən məhkəmə prosesində hazırlıq iclası davam etdirilib.**



Məlum olub ki, təqsirləndirilən şəxslərdən Mirasəf Kərimli və Mədət Hüseynov ev dustaqlığındadır. Mirasəf Kərimlinin məhkəmə prosesində iştirak edən atası bildirib ki, oğlu yıxılıb və ağır xəsarət alıb. Bu səbəbdən də məhkəməyə gələ bilməyib.

Prosesdə diqqət çəkən məqam dəmir barmaqlıqlar arxasında olan 3 nəfərin Mədət Hüseynova qəzəbli şəkildə baxması olub. Həbsdə olanlardan Sərhat Əmirov ev dustaqlığında olan Mədət Hüseynova "Satqın, səninlə görüşəcəyik" deyib.

Məhkəmə prosesi avqustun 7-də davam etdiriləcək.

Qeyd edək ki, Suraxanı Rayon Polis İdarəsinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən Novruz Salayevi saxlayıb. Müəyyən edilib ki, Novruz Salayev ətrafına topladığı şəxslərlə birlikdə Suraxanı rayonu ərazisində silsilə mənzil oğurluqları törədib. Əməliyyat tədbirləri nəticəsində qeyd edilən qrupun digər üzvləri - Bakı şəhər sakinləri Nurlan Ağayev, Sərhat Əmirov, Mədət Hüdeynov və Mirasəf Kərimli saxlanılıblar.

Dəstə üzvlərinin cinayət yolu ilə ələ keçirdikləri məişət avadanlıqları və digər qiymətli əşyalar Novruz Salayevin avtomobili ilə onun yaşadığı evə aparılıb. Oğurluq əşyaların bir qismi elə həmin evdən aşkar olunaraq maddi sübut kimi götürülüb.

Qeyd edək ki, polis Novruz Salayevin yaşadığı evə baxış keçirərkən oradan ümumilikdə 4 kiloqram yarımdan çox qurudulmuş marixuana, 3 qrama yaxın heroin, çətənə toxumu və "Maqnum" markalı tapança aşkar olunaraq götürülüb. Əməliyyat zamanı məlum olub ki, həbs edilən şəxslər oğurluğa "Cip"lə gedirmiş.

**❑ İlkin MURADOV,**
**Musavat.com**



# Bakıda daha bir süpürgəçini maşın vurub öldürdü

Bakıda süpürgəçini maşın vuraraq öldürüb. Daxili İşlər Nazirliyinin mətbuat ximdətindən APA-ya verilən məlumata görə, iyulun 30-da saat 10 radələrində Yasamal rayonunun Mətbuat prospektində Bakı şəhər sakini Fərhad Vəliyev idarə etdiyi "Hyundai" markalı avtomobillə yolun kənarında təmizlik işləri aparan mənzil kommunal istismar sahəsinin işçisi Telli Babayevanı vurub. Xəstəxanaya yerləşdirilən T.Babayeva orada ölüb.

Faktla bağlı Yasamal RPİ tərəfindən araşdırma aparılır.

YENİ MÜSAVAT
N 163 (7052) 1 avqust 2018

# Azərbaycanda da marixuana leqallaşa bilərmi? - iki rəy

**Gürcüstanda marixuanadan istifadə ilə bağlı bütün sanksiyalar ləğv olunub. APA-nın yerli bürosunun məlumatına görə, bu barədə Gürcüstanın Konstitusiya Məhkəməsi qərar qəbul edib.**

## Hüquqşünas: "Gürcüstanda qəbul olunub, bizdə də qəbul edilməlidir" kimi yanaşma da doğru deyil, tədqiqat aparılmalıdır"

## İqtisadçı: "Gürcüstanda marixuanadan istifadə leqallaşandan sonra ora gedən turist sayında ciddi artım olacaq"



Natiq Cəfərli



Əsabəli Mustafayev

Məhkəmə "Girçi" Partiyasının üzvləri Zurab Caparidze və Vaxtanq Meqrelişvilinin iddiasını təmin edərək, hakim təyinatı olmadan marixuananın istifadəsi ilə bağlı bütün sanksiyaları qeyri-konstitusion elan edib.

İddiaçılar bildiriblər ki, marixuanadan istifadə şəxsiyyətin azad inkişafı ilə bağlı hüququdur və marixuanadan ziyan yalnız onu istifadə edən şəxsə dəyə bilər və bununla bağlı məsuliyyəti həmin şəxs daşıyır.

Qərarı şərh edən Z. Caparidze bildirib ki, Gürcüstanda marixuanadan istifadə tam leqallaşdırılıb: "Məhkəmənin bu qərarı ilə Gürcüstan daha azad ölkəyə çevrildi. Marixuanadan istifadəyə görə inzibati cəzalar ləğv olunub. Artıq marixuanadan istifadəyə görə Gürcüstanda heç kəs cəzalandırıla bilməz".

Hazırda ABŞ, Argentina, Avstraliya, Belçika, Braziliya, Kamboca, Kolumbiya, Kosta-Rika, Xorvatiya, Çexiya, Ekvator, Estoniya, Fransa, Hindistan, İran, Pakistan, Şimali Koreya, Uruqvay, İspaniya kimi dünyanın müxtəlif yerlərində çətənənin istehsalı və istehlakına müxtəlif ölçülərdə icazə verilir.

Azərbaycanda da marixuananın leqal istifadəsi məsələsi zaman-zaman gündəmə gətirilir. Hazırda ölkə həbsxanalarında xeyli sayda məhbus var ki, narkotik vasitə istifadə etdiyinə görə həbs olunub. Ekspertlər bildirirlər ki, əslində həmin şəxsləri həbs etməkdənsə, müalicəyə, reabilitasiyaya yönəltmək lazımdır. Hazırda Azərbaycanda qanunvericiliyə görə, bütün növ narkotik vasitələrin istifadəsi qadağandır.

Marixuana çətənə bitkisinin qurudulmuş çiçəkli baş qismindən və yarpaqlarından əldə edilən, tütünə bənzəyən, yaşımtıl və ya qəhvəyi bir maddədir. Toz marixuana, kənaf bitkisinin çiçəkli baş qisminin qara və ya qəhvəyi ifrazatının toza çevrilmiş və ya qəlib halıdır.

**İqtisadçı ekspert Natiq Cəfərli məsələni şərh edərək bildirdi ki, Gürcüstanda marixuanadan istifadə leqallaşdıqdan sonra ora gedən turist sayında çox ciddi artım olacaq:** "Azərbaycan turizmdən hiss ediləcək gəlir götürmək istəyirsə, hər il ölkəyə, azı, 7-8 milyon turist gəlməlidir. Bu saya nə biznes, nə hökumət, nə də cəmiyyət hazır deyil. Halbuki bu sistemlə ölkənin turizm və aqrar sahədən başqa heç bir perspektivi yoxdur".

**Azərbaycanda marixuana leqallaşa bilərmi? Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan hüquqşünas Əsabəli Mustafayev dedi ki, hər ölkə özündə tədqiqat aparır və müəyyən edir ki, orada narkotik istifadəçiləri daha çox hansı maddəni qəbul edirlər:** "Bununla həm də tendensiyanı müəyyənləşdirirlər. Əgər ölkədə daha çox ağır narkotiklərdən istifadə olunursa, orada belə təsəvvür yaranır ki, yüngül narkotik maddə qanuni olsa, insanlar daha çox ondan istifadə edərlər. Belə olan zaman onlar marixuananın istifadəsini sərbəstləşdirirlər. Məsələn, Hollandiyada bu cür oldu. Onlar uzun müddət tədqiqat apardılar və müəyyən etdilər ki, ağır narkotik qəbul edənlər bunu əlacsızlıqdan edirlər. Çünki marixuananı da, ağır narkotik maddəni də tapmaq eyni cür çətindir. Bir müddət sonra tədqiqat apardılar və gördülər ki, güclü narkotik istifadəçiləri daha çox marixuanaya üstünlük verirlər. Yəni ağır narkotiklər daha az istifadə olunur. Bu, həm də məsuliyyət yaratmır. Ola bilər ki, Azərbaycanda da oxşar hal olsun. Yəni tədqiqatların nəticəsində belə bir şey görünsə, yəqin ki, bizdə də o cür qanun qəbul edilə bilər ki, marixuananın satışı leqallaşsın".

**Hüquqşünasın sözlərinə görə, Cinayət Məcəlləsinin 234.1-ci (Satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə və ya saxlama) maddəsinin dekriminallaşdırılması ilə bağlı müzakirələr olub:**

"Qərar qəbul olundu ki, ilk dəfə bu maddə ilə məhkumluq yaranmır. Onlar ilk dəfə müalicəyə göndərilir. Əgər şəxs narkotikdən istifadəyə davam edirsə, artıq cinayət məsuliyyəti yaradır. Qanuna bu cür dəyişiklik qəbul olundu. Hazırda bu maddə ilə ilk dəfə kimə ittiham elan olunubsa, onlar müalicəyə göndərilir. Hesab edirəm ki, bu, yaxşı haldır. Məsələ ilə bağlı uzun müddət idi ki, müzakirələr aparılırdı. Eyni zamanda marixuana ilə bağlı da uzun zamandır ki, danışıqlar var. Ola bilsin ki, qorxurlar ki, marixuananın azad satışı narkomanların sayını daha da artıra bilər. Bu risk də mövcuddur. Bu baxımdan mütəxəssislərin rəyini gözləmək lazımdır. Hər halda, məsələ ilə bağlı dünyada təcrübə var ki, bu barədə də yuxarıda danışdıq. Marixuana sağlamlıq üçün ağır narkotik maddə kimi ciddi zərərli deyil. Ancaq "Gürcüstanda qəbul olunub, bizdə də mütləq qəbul edilməlidir" kimi yanaşma da doğru deyil. Buna, hər halda, cəmiyyət də hazır olmalıdır. Eyni zamanda biz tendensiyanı gözləməliyik. Aparılan tədqiqat nəticəsində görünsə ki, birdən-birə marixuananın leqallaşması narkotik istifadəçilərinin kütləvi artımına səbəb ola bilər, o zaman ayrı qərarlar lazımdır. Bəzi ölkələrdə ancaq gecə barlarında bu maddədən istifadə etməyə icazə verilir. Bu, prosesin kütləvi yayılmasının qarşısını alan bir amildir. Belə nüanslar da mütləq nəzərə alınmalıdır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Bakıda 27 yaşlı arvadını öldürən şəxs: "Mən gecə yatanda..."

## Babayev keçmiş arvadını niyə qətlə yetirib?



**Bakıda keçmiş arvadını öldürməkdə ittiham edilən şəxs hakim qarşısına çıxarılıb. Məlum olub ki, onlar boşansa da dost kimi görüşürmüşlər. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qətl törətməkdə təqsirləndirilən Rahib Babayevin cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən məhkəmədə Rahid Babayev vəkilinin suallarını cavablandırıb. O bildirib ki, mərhum arvadı iki dəfə ona bıçaqla xəsarət yetirib. Babayev qeyd edib ki, arvadı həmişə çantasında bıçaq gəzdirirmiş: "Bir dəfə evdə olanda mübahisə etdik. Bıçağı atanda sağ buduma dəydi. Sonra mən Binədə kirayə ev tutub getdim. Amma məni izləməyə başladı. Yolda rastlaşanda yenə mənə bıçaq çıxardı. Sinəmə vuranda çəkildim. Bıçaq sinəmi yaraladı".

**R.Babayev hadisə günü baş verənlərlə bağlı da danışıb. O deyib ki, həmin vaxt uşaqları yan otaqda yatıbmış:** "Mənimlə yenə də mübahisə elədi. Bıçaqla özünə xəsarət yetirmək istədi. Qollarını kəsmək istəyəndə mən onu tutdum, imkan vermədim. Ağzından da tutdum ki, qışqırmasın. Sonra saat 3-də mübahisəmiz düşdü. Mən yatanda şəklimi çəkib yeni ailə həyatı qurduğum qadının qardaşına göndərib. Deyib ki, Rahib mənim yanımdadır, sən gəl, bacını apar. Mən də buna əsəbləşdim. Mübahisəmiz düşəndə qışqırmağa başladım. Əllərimlə boğazından tutub sıxdım, boğuldu".

**Rahib Babayev keçmiş arvadını öldürməsinin səbəbi kimi bunları deyib:** "Şərəf və ləyaqətimi alçaltdığı üçün etdim. Əməlimdən peşmanam. Özümü də, onu da bədbəxt etdim. Uşaqlarımın isə həyatını məhv elədim".

**Mərhumun atası Rahib Babayevə sual verib:** "Bu günə qədər bizdən sənə pislik edən olub?" R.Babayev bildirib ki, qayınatasından və qayınlarından həmişə yaxşı münasibət görüb, heç vaxt aralarında problem olmayıb.

**Mərhumun atası söyləyib ki, Rahib Babayevə qızı ilə barışığa gələn zaman xəbərdarlıq edib:** "Evimə gəlib qızımla barışmaq istədiyini dedi. Mən razı olmadım. Üzr istədi, qızımın ayaqlarına düşdü. Mən qızımın getməsini istəmirdim. Qızımın üzərində bıçaq olmasını mən izah edim. Qızım süpürgəçi işləyirdi. Qazandığı pulla bu Rahibə çaxır da alırdı. Qızım mənə dedi ki, gecə Rahib 4 nəfərlə evdə gec saatlara qədər içir. O da uşaqlarını qucaqlayıb, bıçağı da əlində tuturdu ki, ona heç kim heç nə etməsin. Qaldıqları evin qapısı, şüşələri yox idi".

Mərhum Ülviyyə ilə Rahibin boşandıqdan sonra bir evdə yaşamasının səbəbi haqda məlum olub ki, onlar dost kimi yaşamağa qərar veriblərmiş. Bu barədə Rahib Babayev də ifadəsində göstərib. Rahib istintaqa ifadəsində söyləyib ki, keçmiş arvadının yaşadığı evə gedib, onunla həm də uşaqlarına görə tez-tez görüşüblər.

Mərhumun ailə üzvləri Rahib Babayevin boşandığı qadının evinə getməsinə etiraz ediblər. Rahib Babayevin anası Almaz Babayeva isə ifadəsində göstərib ki, oğlu yenidən ailə həyatı qurduqdan sonra keçmiş gəlini Ülviyyə ilə görüşüb. O, oğlunun ailəsinin problemli olduğunu söyləyib.

Qətl hadisəsi bu il yanvarın 23-də gecə saat 3 radələrində Hasil Bayramov küçəsi ev 67-də baş verib. Qeyd edilən ünvanda kirayədə yaşayan, 1991-ci il təvəllüdlü Orucəliyeva Ülviyyə Sulduz qızı keçmiş həyat yoldaşı, 1985-ci il təvəllüdlü Babayev Rahid Telman oğlu tərəfindən öldürülüb. Hadisədən sonra R.Babayev könüllü olaraq 31-ci polis bölməsinə gələrək təslim olub.



Faktla bağlı Suraxanı Rayon Prokurorluğunda cinayət məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Saxlanılan Rahid Babayev istintaqa verdiyi ilkin ifadəsi zamanı bildirib ki, 2 ildir Ülviyyədən ayrılıb, 2 azyaşlı övladları var.

"Ötən axşam Ülviyyənin kirayədə yaşadığı evin qabağından keçirdim, birdən o, qabağımı kəsərək qışqırdı ki, səni qoymayacam evlənəsən, qayıt yanıma. Birtəhər onu sakitləşdirdim və yaşadığı mənzilə apardım. Ancaq o, evdə də sakitləşmədi, məni təhqir etməyə başladı. Mən də dözmədim, gecə saatlarında onu boğaraq öldürdüm" - deyə Rahid Babayev ilkin ifadəsində bildirib.

❑ **İlkin MURADOV,**
**Musavat.com**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 163 (7052) 1 avqust 2018*




## Alman həkimlərin səhvi rekord həddədir

**Tibb sisteminə heyran qaldığımız ölkələrdə də insanlar həkimlərin səhvlərindən əziyyət çəkir. Almaniyanın Hamburq şəhərində təkcə 2012-ci ildə 449 xəstə həkim səhvinə görə şikayət edib. Hamburq Həkimlər Birliyinin araşdırmasına görə, yekunlaşan məhkəmə proseslərinin təxminən 23 faizində həkim səhvi təsdiqlənib və zərərə uğrayan xəstələrə təzminat ödənib. Araşdırmaya görə, alman həkimlər daha çox diz müayinələrində və qol, ayaq biləyi qırıqlarının müalicəsində səhvə yol verirlər. Doğuş zamanı yol verilən səhvlər isə araşdırmada 3-cü sırada yer alıb.**

Həkim səhvi ucbatından səhhətinin pisləşdiyini düşünənlər üçün Hamburqda araşdırma mərkəzləri var. Bu mərkəzlərdə bitərəf mütəxəssislər xəstəni və xəstəyə tətbiq edilən müalicələri yenidən araşdıraraq məhkəməsiz anlaşma yolunu tuturlar. Bu ölkədə təkcə 2010-cu ildə həkim səhvi və tibbi məhsulların çatışmazlığı ucbatından ən azı, 1712 nəfər həyatını itirib. Xüsusən də həkimlərin səhvləri ucbatından dünyasını dəyişən insanların sayında xeyli artım var. 2009-cu ildə bu rəqəm 551 nəfər idisə, 2010-cu ildə 944-ə qədər artıb.

Almaniyada daha çox rast gəlinən ölüm səbəbləri arasında yetərsiz dezinfeksiya, köçürülən orqanların xəstənin bədəni tərəfindən qəbul edilməməsi və protez qoyulması zamanı üzə çıxan problemlərdir.

## Tutulmamaq üçün aşpaz paltarı geydi

**Çinin Xandan şəhərində kuryoz hadisə qeydə alınıb. Belə ki, sərxoş sürücü həbsdən qurtulmaq üçün özünü aşpaz kimi təqdim edib. Bu barədə "South China Morning Post" nəşri xəbər yayıb.**

Xəbər verilir ki, yol polisinin diqqətini alkoqol yoxlamasından keçmək üçün dayanmaqdan imtina edən bir maşın çəkib. Onlar müəyyən müddət maşını təqib edəndən sonra onu çoxsaylı restoranlar olan küçədə tapıblar. Lakin maşının mühərriki çalışsa da, sürücüsü içində olmayıb. Maşının salonunda isə bir qadın olub. Gecə saatları olduğu üçün demək olar ki, bütün restoranlar bağlı olub. Polislər cəmi bir restoranın çalışdığını görsələr də, orada şübhəli heç nə görməyiblər. Bu zaman restorandan ət doğraması səsi eşidilib və polislər bunu edənin az öncə maşınla onlardan qaçan kişi olduğunu görüblər. Kişi polislərə



baxaraq, "mən, sadəcə, aşpazam, sürücü deyiləm" deyib.

Yoxlama zamanı onun polisdən qaçan sürücü olduğu müəyyənləşib. Onun qanındakı spirtli içkinin miqdarı normanı aşıb. Bundan başqa, "aşpaz"ın maşın sürmə hüququ da olmayıb. Məlum olub ki, 2012-ci ildə sərxoş vəziyyətdə maşın sürdüyü üçün onu sürücülük hüququndan məhrum ediblər.

## Səhərlər dondurma ye, beynin yaxşı işləsin

**Yaponiyalı tədqiqatçıların fikrincə, səhərlər dondurma yeyən adamlar ağıl və fərasətləri ilə seçilirlər. Bu şirin təam insanların reaksiya sürətini artırır və onlarda psixi qıcıqlanmanı zəiflədir.**

Alim Yosihiko Koqanın eksperimentə cəlb etdiyi könüllülərə səhərlər dondurma yemək təklif edilib. Bu cür səhər yeməyindən sonra iştirakçılardan məntiq testlərini yerinə yetirmək xahiş olunub. Məlum olub ki, dondurma insanların reaksiya sürətini artır və onlarda psixi qıcıqlanmanı zəiflədir.

Y.Koqa həmçinin qeyd edib ki, dondurma yedikdən sonra insanlarda yüksək tezlikli alfa dalğaların bolluğu müşahidə olunur. Alimin gümanına görə, "yüksək döyüş hazırlığı"nı dondurmanın temperaturu yaradır.

Buna görə də o, başqa bir qrupu eksperimentə cəlb edib. Koqa iştirakçılara naharda bir stəkan soyuq su təklif edib. Bundan sonra eksperiment iştirakçıları böyük səviyyədə sayıqlıq və əqli qabiliyyət göstəriblər. Lakin onların göstəriciləri səhər yeməyində dondurma yeyənlərin göstəricilərinə çata bilməyib.





## Bu alt paltarlarını siqnalizasiyasız çıxarmaq olmur

**Almaniyada kod açarı və sinqlizasiyası olan alt paltarı istehsal edilib. Bu barədə "Daily Mirror" xəbər verib. Qeyri-adi alt paltarı cırılmayan və çətin kəsilən parçadan hazırlanıb. Alt paltarını çıxarmaq üçün mütləq kodu yazmaq lazımdır. Düzgün olmayan kod daxil olduğu halda sistemdəki düzənləmə sayəsində dərhal siqnalizasiya işə düşür. Onun səs hündürlüyü isə 130 desibeldir.**

Firma rəhbərliyi hesab edir ki, bu cür alt paltarları qadınları cinsi zorakılıqdan qoruya bilər. "Safe Shorts" mağazalarında bu sayaq alt paltarlarını 99.99 avroya almaq mümkündür.




**QOÇ** - Yaxşı olar ki, əsas vaxtınızı fəaliyyət sahəsində xərcləyəsiniz. Münasibət qurmaq, hansısa qlobal problemi həll etmək, uzaq səfərə çıxmaq üçün uğurlu ərəfə deyil. Yalan vədlər verməyin.

**BUĞA** - İnsanların bir-birinə soyuqlaşdığı indiki ərəfədə dini-mistik dəyərlərə qiymət verməlisiniz. Bu baxımdan Tanrıya zidd olan addımlar atmamalısınız. Səhhətinizi qoruyun.

**ƏKİZLƏR** - Ailə-sevgi münasibətlərini qaydasına salmaq üçün gözəl fürsətdir. Öz eşqinizi izhar etmək istəyirsinizsə, bir an da vaxt itirməyin. Başqalarının qəlbinə dəyən hərəkətlərə yol verməyin.

**XƏRÇƏNG** - Bu gün ilk növbədə sağlıq durumunuza diqqət yetirməlisiniz. Astroloji göstəricilər daxili orqanlarınızda problemlərin baş qaldıracağını göstərir. Qalan işləriniz normal olacaq.

**ŞİR** - Bu təqvimdə ən müxtəlif situasiyalarla rastlaşa bilərsiniz. Daha həssas olduğunuz üçün emosiyalarınızı cilovlayın. Mübahisə etməyin. Başınızı yalnız adi işlərlə qatın.

**QIZ** - O qədər də uğurlu gün deyil. Nəzərdə tutduğunuz ciddi planları təxirə salın. Qarşılıqlı münasibətlər zəminində ehtiyatlı olun. Sizə aidiyyəti olmayan məsələlərə müdaxilə etməyin, Tanrı nəzərini unutmayın.

**TƏRƏZİ** - Fəaliyyətlə bağlı yeni gedişlər etmək üçün imkan qazanacaqsınız. Bu yönümdə müttəfiqlərinizin köməyindən maksimum yararlanmağa çalışın. Bu gün ziyarətə getmək, dua oxumaq sizə rahatlıq gətirəcək.

**ƏQRƏB** - Ulduzların düzümü bu təqvimdə riskdən uzaq olmağı tövsiyə edir. Günorta saatlarında isə perspektivli danışıqlarda iştirakınız gözlənilir. Pul barədə bacardığınız qədər qənaətcil olun.

**OXATAN** - Təxminən saat 13-ə qədər mübahisə və qalmaqallar gözlənildiyindən özünüzü qoruyun. Sonrakı müddətdə isə vəziyyət qismən sabitləşəcək. İşlə bağlı məsuliyyətinizi dərk edin.

**OĞLAQ** - Hər mənada uğurlu gündür. Göy qübbəsi müdafiənizdə durduğu üçün ovqatınız xoş olacaq. Günün ikinci yarısında şəxsi büdcənizi artırmaq üçün şans qazanacaqsınız. Ölçülü-biçili danışın.

**SUTÖKƏN** - İş yoldaşlarınızla, qonşu və qohumlarınızla mülayim davranın. Hətta təqsirkar qarşı tərəf olsa da, təmkin göstərib neytrallığınızı qorumağa çalışın. Bəxtinizdə pul da var.

**BALIQLAR** - Ailə üzvlərinizlə bağlı yaranmış problemləri özünüzə dərd etməyin. Hər şeyi taleyin axarına buraxın. İndi sizə onlara qarşı mülayim mövqe nümayiş etdirmək lazımdır. Səhhətinizə fikir verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Evlənmək üçün məhkəməyə müraciət etdi



**Səudiyyə Ərəbistanında gənc qız məhkəmə yolu ilə nişanlısının toy gününü təyin etməsinə nail olub. Gənc qız oğlanın nişanı qaytarmaq fikrində olduğunu hiss edib və onu ailə məsələləri ilə bağlı məhkəməyə verib. Qız bildirib ki, o, gənc oğlan və onun ailəsi ilə müqavilə bağlandıqdan sonra nişanlanıb. Oğlan tərəfdən məhkəməyə bəyin vəkili gəlib və bildirib ki, oğlanın evlənməkdə fikri ciddidir. Toyun gecikməsinin səbəbini vəkil bəyin toya hazırlıq işləri ilə məşğul olması ilə əlaqələndirib. Hər iki tərəfin razılığı ilə toy sentyabra təyin olunub.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.